European Commission
against Racism and Intolerance

ECRI

Commission européenne
contre le racisme et l'intolérance

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

CRI(2018)06
Version azerbaïdjanaise
Azerbaijani version

# (İDAK) 2 SAYLI ÜMUMİ SİYASƏT TÖVSİYƏSİ

# MİLLİ SƏVİYYƏDƏ İRQÇİLİK VƏ DÖZÜMSÜZLÜYƏ QARŞI MÜBARİZƏ ÜZRƏ HÜQUQ BƏRABƏRLİYİ ORQANLARI

**7 DEKABR 2017-Cİ İL TARİXİNDƏ QƏBUL EDİLİB**

Strasburq, 27 Fevral 2018

Lütfən nəzərə alın ki, hazırkı sənəd tərcümədir. Hər hansı şübhə olduğu təqdirdə ingilis və fransız dillərində olan orijinal versiyalara istinad edilməlidir

This document was translated with the support of the EU and Council of Europe regional project "Strengthening access to justice through non-judicial redress for victims of discrimination, hate speech and hate crimes in the Eastern Partnership".

Avropa Şurası
İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI) tərəfindən nəşr edilib - 2018
Strasburqda nəşr edilib

**İrqçiliyə və Dözümsüzlüyə qarşı Avropa Komissiyası (ECRI)**

Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa İttifaqı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və başqa beynəlxalq təşkilatların çoxsaylı beynəlxalq sənədlərində, eləcə də üzv Dövlətlərin konstitusiya və qanunlarında hüquq bərabərliyi, irqçilik və dözümsüzlüyə qarşı mübarizəyə verilən verilən əhəmiyyəti xatırlayaraq;

Hüquq bərabərliyinə nail olmağın, irqçilik və dözümsüzlüklə mübarizənin demokratik cəmiyyətlərin davamlı inkişafı üçün labüd olduğuna, nəticədə yaranacaq sosial sosial birliyin Avropa Şurasına üzv Dövlətlərdə və bu Dövlətlər arasında sülh və təhlükəsizlik baxımından vacib zəmanət təşkil edəcəyinə inanaraq;

Ölkədəki vəziyyətin monitorinqi nəticəsində aşkar edilmiş faktlar əsasında irqçilik və dözümsüzlüyə qarşı mübarizə üzrə hüquq bərabərliyi orqanlarının bərabərliyin əldə edilməsi, ayrı-seçkilik və dözümsüzlüklə mübarizə sahəsində başlıca rol oynadığını önə çəkərək;

Avropa Şurasına üzv dövlətlərin çoxunda hüquq bərabərliyi orqanlarının təsis edildiyi və fəaliyyət göstərdiyi faktını alqışlamaqla, bütün bunların bütövlükdə Avropada aparılan dəyərli öncüllük işlərinin nəticəsi olduğunu təsdiq edərək;

Bütün üzv dövlətlərdə belə orqanların institusional forma və fəaliyyətlərinin fərqləndiyini, həminin onların dəyişməyə, uyğunlaşmağa və təkamül etməyə davam etdiyini təsdiq edərək;

Bu orqanların öz tapşırıqlarını yerinə yetirməyə çalışarkən qarşılaşdığı çətinlik və təzyiqləri anlayaraq və bununla əlaqədar olaraq hüquq bərabərliyi orqanlarının müstəqil və effektiv fəaliyyətinin zəruri olduğunu vurğulayaraq;

Avropada və üzv Dövlətlərdə irqçilik və dözümsüzlüyün miqyasının irqçilik və dözümsüzlüyə qarşı mübarizə üzrə hüquq bərabərliyi orqanlarının əlavə investisiya ilə təmin edilməsini və gücləndirilməsini zəruri etiyinə inanaraq;

Bu Ümumi Siyasət Tövsiyəsinin 13 iyun 1997-ci il tarixində qəbul edilən ilkin versiyasının 20 il müddətində üzv Dövlətlərdə qazanılmış təcrübənin və formalaşmış qabaqcıl təcrübələrin daxil edilməsi məqsədilə yenidən baxılmalı olduğunu bilərək;

Milli insan hüquqları institutları haqqında Paris prinsipləri, Avropa İttifaqının bərabər rəftar haqqında direktivləri kimi bu sahəyə aid digər standartları əsas götürməklə;

Üzv Dövlətlərə hüquq bərabərliyi orqanlarını daha da gücləndirməkdə kömək etmək, eləcə də həm üzv Dövlətlərə, həm də hüquq bərabərliyi orqanlarına bərabərlik və sosial birliyə nail olmaqda yardım etmək istəyindən çıxış edərək;

Üzv dövlətləri hökumətlərinə aşağıdakıları tövsiyə edir:

## I. Hüquq bərabərliyi orqanlarının təsis edilməsi

1. Üzv Dövlətlər irqçilik və dözümsüzlüklə mübarizə məqsədilə konstitusiya müddəaları və ya parlament tərəfindən qəbul edilən qanunvericilik aktları vasitəsilə bir və ya bir neçə müstəqil hüquq bərabərliyi orqanları təsis etməlidirlər (hüquq bərabərliyi orqanları).

2. Bu zaman qəbul edilən mətndə hüquq bərabərliyi orqanlarının müstəqil olduğu aydın qeyd edilməli və bu müstəqilliyin təmin edilməsi üçün lazımi şərtlər müəyyən edilməlidir. Hüquq bərabərliyi orqanları həm "*de jure", həm "de facto"* müstəqilliyə malik olmalı, icraedici və qanunverici hakimiyyətdən kənar ayrıca hüquq şəxs olmalı, real təsir göstərə bilmək üçün zəruri səriştə, səlahiyyət və resurslara sahib olmalıdır. Faktiki müstəqillik və effektivliyə zəmanət üçün zəruri olan müxtəlif elementlər bu Ümumi Siyasət Tövsiyəsinin §§ 22 -39-cu bəndlərində müəyyən edilir.

3. Mandat, institusional struktur, funksiyalar, səriştə və səlahiyyətlər, təyin edilmə və işdən kənarlaşdırılma prosedurları, rəhbər vəzifələr üçün zəmanətlər və səlahiyyət müddətləri, eləcə də hüquq bərabərliyi orqanlarının maliyyələşdirilmə və hesabatlılıq mexanizmləri qanunda müstəqillik və effektivliyi təmin edəcək şəkildə müəyyən edilməlidir.

4. Bu orqanların mandatları ayrı-ayrılıqda və ya birlikdə aşağıdakıları əhatə etməlidir:

a. Bərabərliyin təbliği və təmin edilməsi, ayrı-seçkilik və dözümsüzlüyün, o cümlədən struktur ayrı-seçkilik və nifrət nitqinin qarşısının alınması və aradan qaldırılması, cəmiyyət daxilində müxtəlif qrupları təmsil edən şəxslər arasında müxtəliflik və yaxşı münasibətlərin təbliği (bərabərliyin təmin edilməsi üzrə mandat).

b. İDAK mandatının əhatə etdiyi ayrı-seçkilik motivləri: “irq”,[1] dərinin rəngi, dil, din, vətəndaşlıq, milli və ya etnik mənşə, cinsi oriyentasiya və gender kimliyi, eləcə də sektorlararasi ayri-seckilikle ilə yanaşı, Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsində müəyyən edilən hər hansı başqa əlamətə görə ayrı-seçkilik. Hüquq bərabərliyi orqanları həmçinin cins, gender, yaş və əlillik kimi əlavə əlamətləri də əhatə edə bilər.

c. Dövlət və özəl sektorda bütün sahələr, xüsusilə: məşğulluq, peşəkar biliklərə üzvlük, təhsil, təlim, mənzil təminatı, səhiyyə, sosial müdafiə və sosial imtiyazlar, sosial və mədəni fəaliyyətlər, ödənişli və ya ödənişsiz əsaslarla ictimaiyyət üçün nəzərə tutulan mal və xidmətlər, ictimai yerlər, hüquq mühafizəsi daxil olmaqla iqtisadi və dövlət xidmət və funksiyalarının icrası.

d. Üzv Dövlətlərin bütöv ərazisi.

## II. İnstitusional struktur

5. Üzv Dövlətlərin hüquqi və inzibati ənənələrindən asılı olaraq hüquq bərabərliyi orqanlarının müxtəlif formaları mövcud ola bilər.

6. Hüquq bərabərliyi orqanları bir və ya daha çox ayrı-seçkilik əlamətini əhatə edə bilərlər. Çoxsaylı əlamətlər əhatə edildiyi halda, bu əlamətlərin hər birinə və onlar arasındakı kəsişmələrə lazımi diqqət ayrılmalıdır.

7. Hüquq bərabərliyi orqanları həm müstəqil ola, həm də insan hüquqları və ya ombudsman mandatı olan çoxmandatlı institutların tərkibinə daxil ola bilər. Sonuncu halda aşağıdakı müddəalar tətbiq edilməlidir:

a. Qanunvericilik bu institutun bərabərlik məsələləri ilə əlaqədar mandatını aydın müəyyən etməlidir.

b. Bərabərlik məsələləri üzrə mandatın lazımınca diqqət mərkəzində saxlanması məqsədilə hər bir mandat üçün müvafiq kadr və maliyyə resursları ayrılmalıdır.

---

[1] Bütün insanlar eyni növə aid olduğundan, İDAK müxtəlif “irqlərin” mövcudluğuna əsaslanan nəzəriyyələri rədd edir. Lakin İDAK bu Tövsiyədə sözügedən ifadədən bir qayda olaraq və səhvən “başqa irq” kimi qavranılan şəxslərin Tövsiyə çərçivəsində təmin edilən müdafiədən kənarda qalmaması məqsədilə istifadə edir.

c. Rəhbərlik, məşvərət və idarəetmə strukturları elə təşkil edilməlidir ki, dəqiq rəhbərlik, eləcə də bərabərlik məsələləri üzrə mandatın irəli çəkilməsi və göz önündə olması təmin edilsin.

d. Hesabat sistemləri bərabərlik məsələləri üzrə mandat çərçivəsində görülən işlərə və əlaqədar problemlərə adekvat əhəmiyyət verməlidir.

8. Hüquq bərabərliyi orqanlarının çoxmandatlı institutların tərkibinə daxil olduğu hallarda bu Ümumi Siyasət Tövsiyəsi həmin institutları və onların bərabərlik sahəsindəki fəaliyyətlərinə şamil edilməlidir. Belə institutlarda mandatlarla əlaqədar verilən səriştə və səlahiyyətlər elə uzlaşdırılmalıdır ki, hər bir mandat mümkün dərəcədə başqa mandatlarla eyni miqyaslı səriştə və səlahiyyətləri özündə birləşdirsin.

9. Müxtəlif hüquq bərabərliyi orqanları mövcud olduğu halda onların səriştə və səlahiyyətləri bərabər səviyyəyə gətirilməli, üst-üstə düşmələrin aradan qaldırılması, birgə fəaliyyət imkanlarının yaradılması, resurslardan istifadənin optimallaşdırılması məqsədilə əlaqələndirilmə təmin edilməlidir. Hüquq bərabərliyi orqanları ayrı-seçkilik əleyhinə qanunvericiliyin ümumi təfsirini hazırlamalı, səlahiyyətlərindən əlaqələndirilmiş qaydada istifadə etməlidir.

## III. Funksiyalar

10. Hüquq bərabərliyi orqanlarına aşağıdakılar həvalə edilməlidir:

a. 13-cü bənddə (təbliğat və qarşısınıalma funksiyası) müəyyən edildiyi kimi, bərabərliyin təbliği və ayrı-seçkiliyin qarşısının alınması funksiyası;

b. 14-cü bəndə (dəstək və məhkəməyə mürcaiət funksiyası) uyğun olaraq, ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış şəxslərin dəstəklənməsi və onların adından məhkəməyə müraciət;

həmçinin həvalə edilə bilər:

c. 17-ci bənddə (qərarvermə funksiyası) ətraflı olaraq müəyyən edilən qaydada şikayətlər barədə qərarların qəbulu funksiyası.

Qərar qəbulu funksiyası hüquq bərabərliyi orqanları ilə məhkəmə orqanları arasında bölüşdürülə və ya bütövlükdə məhkəmə orqanlarına verilə bilər.

11. Dəstək, məhkəməyə müraciət və qərar qəbulu funksiyaları bir orqanda birləşərsə, hər bir funksiyanın fərqli bir bölmə və ya işçi heyəti tərəfindən həyata keçirilməsi təmin edilməlidir.Bütün funksiyalar üçün adekvat kadr və maliyyə resursları ayrılmalıdır və hüquq bərabərliyi orqanları ayrı-seçkilik və ya dözümsüzlüyə məruz qalan şəxslərə əhatəli hüquqi və fərdi dəstəyin göstərilməsini təmin etməlidir.

12. Hüquq bərabərliyi orqanlarının istənilən vaxt müddətində hansı səriştə, məqsəd və fəaliyyətləri diqqət mərkəzində saxlayacaqları və onların hansı kombinasiyasından istifadə edəcəkləri barədə qərar qəbul etmək hüququ olmalıdır.

## IV. Təbliğat və qarşısını alma səlahiyyətləri

13. Hüquq bərabərliyi orqanlarının təbliğat və qarşısını alma funksiyalarına aşağıdakıları etmək səlahiyyəti daxil olmalıdır:

a. Bərabərliyin təbliği və həyata keçirilməsi, ayrı-seçkilik və dözümsüzlüyün qarşısının alınması və aradan qaldırılması, cəmiyyət daxilində müxtəlifliyin və müxtəlif qruplar arasında yaxşı münasibətlərin təbliği

b. Ayrı-seçkilik və dözümsüzlük yaşayan qruplar və onların nümayəndələri, insan hüquqları və bərabərlik sahəsində daha ümumi planda fəaliyyət göstərən təşkilatlarla davamlı dialoqun qurulması.

c. Mandatlarının tətbiq dairəsinə aid olan bütün məsələlərlə bağlı müstəqil təşəbbüsə əsaslanan araşdırmaların aparılması, həm fərdi, həm də struktur ayrı-seçkiliklə mübarizə, tövsiyələrin hazırlanması və nəşr edilməsi

d. Mandatlarına aid olan hər hansı məsələ barədə araşdırmanın başladılması və aparılması.

e. Cəmiyyət arasında bərabərliyin, müxtəlifliyin, ayrı-seçkiliyin yolverilməzliyinin, bərabər rəftar və qarşılıqlı anlaşmanın dəyəri barədə bilik və məlumatlılığın artırılması.

f. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qruplar arasında bərabər rəftar haqqında qanunvericlikdə müəyyən edilən hüquqlar və hüquqi müdafiə vasitələri, bu hüquqların icra edilməsi imkanı və hüquq bərabərliyi orqanlarına etimad barədə biliklərin formalaşdırılması.

g. Dövlət sektoru və özəl sektorda fərdlər və institutlar üçün bərabərliyin təbliği və həyata keçirilməsi, ayrı-seçkiliyin və dözümsüzlüyün qarşısının alınması sahələrində qabaqcıl təcrübələr barədə məlumatların, məsləhət və tövsiyələrin verilməsi, dəstəyin göstərilməsi və standartların hazırlanması.

h. Dövlət sektorunda və özəl sektorda qeyri-bərabərliyin aradan qaldırılması üçün müsbət fəaliyyətlərdən istifadənin təşviqi və dəstəklənməsi.

i. İDAK-ın 7 saylı Ümumi Siyasət Tövsiyəsinə uyğun olaraq, bütün hakimiyyət orqanlarının bərabərliyin təşviqi, ayrı-seçkiliyin qarşısının alınması ilə əlaqədar ümumi öhdəliklərinin yerinə yetirilməsinə dəstək, onların həyata keçirilməsi və icrasının təmin edilməsi üçün standartların müəyyən edilməsi

j. Yeni siyasət, qanunvericilik və icra hakimiyyəti aktları barədə məsləhətləşmə prosedurlarında iştirak, mövcud siyasət, icra hakimiyyəti və qanunvericilik aktlarının monitorinqi, siyasət, icra hakimiyyəti və qanunvericilik aktlarının dəyişdirilməsi və təqdim edilməsi üçün tövsiyələrin verilməsi.

k. Əsas qruplar arasında bərabərlik və ayrı- seçkiliyin yolverilməzliyi mövzusunda təlimlərin təşviqi və bu təlimlərə töhfələrin verilməsi.

l. Verilən tövsiyələrin icrasının monitorinqi.

m. Məhkəmələrin və başqa qərarverici orqanlarının qərarlarının izlənməsi.

n. Müvafiq beynəlxalq sazişlərin ratifikasiyasının, belə sazişlərin və müvafiq standartların, məhkəmə praktikalarının, dövlətlərarası təşkilatların hesabatlarının icrasının və yayılmasının təşviqi və dəstəklənməsi; Müvafiq dövlətlərarası təşkilatların apardığı işdə iştirak, onların tövsiyələrinin nəzərə alınması və icrasının monitorinqi.

o. Hüquq bərabərliyi orqanı ilə bənzər məqsədlərə malik təşkilatlarla əməkdaşlıq və onların dəstəklənməsi. Əsas hüquq bərabərliyi məsələlərində ortaq yanaşmanın formalaşdırılması və belə təşkilatlarla əməkdaşlıq sazişlərinin bağlanması.

## V. Dəstək və məhkəməyə müraciət səlahiyyətləri

14. Hüquq bərabərliyi orqanlarının dəstək və məhkəməyə müraciət funksiyalarına aşağıdakıları etmək səlahiyyəti daxil olmalıdır:

a. Şikayətlərin qəbul edilməsi, ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərin hüquqlarının təmin edilməsi məqsədilə müvafiq institutlarda, məhkəmə və arbitraj orqanlarında şəxsi dəstək və hüquqi konsultasiya ilə təmin edilməsi.

b. Müvafiq hallarda barışdırma prosedurlarına müraciət.

c. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərin öz razılıqları əsasında müvafiq institutlarda, məhkəmə və arbitraj orqanlarında təmsil edilməsi.

d. Fərdi və struktur ayrı-seçkilik və ya dözümsüzlük hallarının aşkar edilməsi halında öz adından müvafiq institut, məhkəmə və arbitraj orqanlarında iş başlatmaq.

e. Müvafiq institut, məhkəmə və ya arbitraj orqanları qarşısında "*amicus curiae*" , üçüncü tərəf və ya ekspert qismində iştirak.

f. Bərabərlik, ayrı-seçkilik və dözümsüzlük məsələləri ilə məşğul olan müvafiq institut, məhkəmə və arbitraj orqanlarının qərarlarının icrasının monitorinqi.

15. Hüquq bərabərliyi orqanları özlərinin müəyyənləşdirdikləri və nəşr etdikləri meyarlar əsasında fərdi və struktur ayrı-seçkiliyə məruz qalan insanlarının hüquqlarını təmin etmək məqsədilə təmsilçi olmaq istədikləri məhkəmə işlərini, strateji məhkəmə çəkişmələrini və məkanlarını seçmək hüququna malik olmalıdırlar.

16. Üzv dövlətlər ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış şəxslərin, xüsusilə struktur ayrı-seçkilik hallarında və strateji məhkəmə çəkişmələrində məhkəmə və inzibati, yaxud təmsilçilik xərclərini ödəmək məcburiyyətində olmamalarını təmin etməlidirlər.

## VI. Qərarvermə səlahiyyətləri

17. Qərarvermə funksiyası, hüquq bərabərliyi orqanlarına həvalə ediləcəyi halda, aşağıdakıları etmək səlahiyyətlərini əhatə etməlidir:

a. Ayrı-seçkilik barədə fərdi və kollektiv şikayətləri qəbul etmək, nəzərdən keçirmək, dinləmək və tənzimləmək, bu şikayətlər barədə ikitərəfli sübutetmə öhdəliyi haqqında müddəalar daxil olmaqla, müvafiq qanunvericilik əsasında qərarlar qəbul etmək.

b. Ayrı-seçkilik əleyhinə mülki və ya inzibati qanunvericiliyin pozulub-pozulmadığı barədə qərar qəbul etmək.

c. Ayrı-seçkiliyə son qoymaq, tam bərabərliyinə nail olmaq, gələcəkdə ayrı-seçkilik hallarının qarşısını almaq məqsədilə məcburi qüvvəyə malik qərarların verilməsi, maddi və mənəvi zərər üçün kompensasiyanın ödənməsi, cərimələrin təyin edilməsi daxil olmaqla, effektiv, proporsional və çəkindirici sanksiyaların qoyulması, qərarın və cinayətkarın adını nəşr edilməsi.

d. Qərarlarının icrasını təmin etmək, qərar və tövsiyələrini nəşr etmək.

18. Şikayətlər barədə qərar qəbul edən hüquq bərabərliyi orqanlarına məcburi qüvvəyə malik qərarlar qəbul etmək, 17 c) və d) bəndlərində müəyyən edilən sanksiyaları təyin etmək səlahiyyəti verilmədiyi təqdirdə, hüquq bərabərliyi orqanı aşağıdakılar üçün lazımi səlahiyyətlə təmin edilməlidir:

a. Ayrı-seçkiliyə son qoymaq, tam bərabərliyə nail olmaq, gələcəkdəki ayrı-seçkilik hallarının qarşısını almaq üçün tədbirlərin görülməsini tələb edən qeyri-məcburi tövsiyələr vermək.

b. Tövsiyələrinin icrasını təmin etmək və müvafiq hallarda qərar və tövsiyələrini nəşr etmək.

19. Qanun hüquq bərabərliyi orqanının qəbul etdiyi məcburi hüquqi qüvvəyə malik yekun qərardan apelyasiya vermək hüququ nəzərdə tutmalıdır;

20. Qanun şikayətçilərə ilk növbədə hüquq bərabərliyi orqanı qarşısında icraat başlatmaq və ya birbaşa məhkəməyə müraciət etmək seçimi verməlidir. Hüquq bərabərliyi orqanları qarşısında başladılan icraatın gedişində sonrakı məhkəmə icraatların başladılması üçün nəzərdə tutulan vaxt limiti dayandırmalıdır.

## VII. Sübut və məlumatların əldə edilməsi səlahiyytləri

21. Hüquq bərabərliyi orqanları xüsusilə araşdırmalar aparan və şikayətlər barədə qərar qəbul edən zaman sübut və məlumat əldə etmək səlahiyyətinə malik olmalıdırlar. Onlar aşağıdakıları etmək səlahiyyətinə malik olmalıdırlar:

a. iş, sənəd və başqa materialları yoxlanmaq, araşdırmaq və surətinin çıxarmaq məqsədilə tələb etmək;

b. yerində yoxlamalar aparmaq;

c. insanları sorğu-sual etmək;

d. fərd və ya institut yuxarıda qeyd edilən tələbləri yerinə yetirmədiyi halda, məcburi qüvvəyə malik məhkəmə qərarı üçün müraciət etmək və ya inzibati cərimələr təyin etmək.

## VIII. Müstəqillik və effektivlik

22. Hüquq bərabərliyi orqanları Dövlətin, siyasi partiyaların və ya başqa subyektlərin müdaxiləsi olmadan fəaliyyət göstərməlidirlər və başqaları onlara hər hansı təlimat vemrəlidir. Onlar təşkilati və əməliyyat səviyyələrində tam müstəqilliyə malik olmalıdırlar.

23. Hüquq bərabərliyi orqanlarında rəhbər vəzifələri tutan şəxslər şəffaf, səriştəliliyə və geniş iştiraka əsaslanan prosedur vasitəsilə seçilməli və təyin edilməlidirlər. İcraedici hakimiyyət seçim prosesinin hər hansı mərhələsində həlledici təsirə malik olmamalıdır.

24. Rəhbər mövqelərdə çalışanlar hər hansı müdaxiləyə məruz qalmadan fəaliyyət göstərməli, təhdidlərdən və məcburetmədən qorunmalı, işdən əsassız olaraq kənarlaşdırılma və ya qəbul edilmiş qaydalara baxmayaraq, vəzifə müddətinin uzadılmaması hallarına qarşı müvafiq zəmanətlə təmin edilməlidirlər.

25. Qanun rəhbər vəzifələrin tutulması ilə bir araya sığmayan hər hansı fəaliyyət və üzvlükləri müəyyən etməlidir.

26. Rəhbər vəzifələrdə çalışan şəxslərin cavabdehlikləri aydın müəyyən edilməlidir. Vəzifəli şəxslər müvafiq səviyyədə əməkhaqqı almalı və adekvat müddət ərzində fəaliyyət üçün təyin edilməlidirlər.

27. Hüquq bərabərliyi orqanları daxili strukturları, resurslarını necə idarə etməli olduqları barədə müstəqil surətdə qərar qəbul etməli, işçi heyətlərini özləri işə cəlb etməli və təyin etməli, ehtiyaclarına cavab verən məkana malik olmalıdırlar.

28. Hüquq bərabərliyi orqanları real təsirə malik olmaq üçün bütün funksiya və səlahiyyətlərini icra etməyə imkan verən yetərli işçi heyəti və maliyyə vəsaiti ilə təmin edilməlidirlər. Bu orqanlar ayrıca büdcə və ya büdcə maddəsinə malik olmalıdırlar, onların maliyyələşdirilməsi hər il parlament tərəfindən təsdiq edilməlidir. Hüquq bərabərliyi orqanının büdcəsi əsassız olaraq və ya qeyri-proporsional qaydada azaldılmamalıdır. Hüquq bərabərliyi orqanının mandat, funksiya və ya səlahiyyətləri genişləndirildikdə, bərabərlik məsələləri üzrə mandata uyğunluq təmin edilməli və müvafiq olaraq əlavə maliyyə ayrılmalıdır.

29. Hüquq bərabərliyi orqanları öz funksiyalarını yerinə yetirmək üçün müstəqilliklərinə xələl gəlməməsi şərtilə Dövlətlə yanaşı və ölkədən kənar başqa mənbələrdən açıq və şəffaf qaydada əlavə vəsait almaq hüququna malikdirlər.

30. Hüquq bərabərliyi orqanları hökumət və ya başqa müvafiq institut, yaxud xarici tərəfin əvvəlcədən icazəsi, razılığı olmadan və ya onlara bildiriş vermədən ictimai bəyanatlar vermək, araşdırma və hesabatlar hazırlamaq və onları dərc etmək hüququna malik olmalıdırlar.

31. Hüquq bərabərliyi orqanlarının əməliyyatları müvafiq beynəlxalq və ölkədaxili hüquqi baza, standart və məhkəmə praktikasına əsaslanmalıdır. Onların hesabat və tövsiyələri araşdırma, tədqiqat, sənəd, qərəzsiz və müstəqil məlumatların istifadə edilməsi ilə ekspert rəyi və sübutlara əsaslanmalıdır.

32. Hüquq bərabərliyi orqanları dövlət qulluğu haqqında qanunvericiliyə, dövlət orqanlarına tətbiq edilən maliyyə hesabatlılığı və xərcləmə qaydalarına tabe olmalıdırlar.

33. Hüquq bərabərliyi orqanları müntəzəm olaraq strateji planlaşdırma ilə məşğul olmalı, irəliləyişlərini qiymətləndirmək üçün nəticə və təsir göstəriciləri hazırlamalı və izləməli, müvafiq anlarda dəyərləndirmələ aparmalıdırlar.

34. Hüquq bərabərliyi orqanları maarifləndirmə fəaliyyətlərini formalaşdırmaq və istiqamətləndirmək üçün kommunikasiya strategiyası hazırlamalıdırlar.

35. Hüquq bərabərliyi orqanları parlament və ya onun müvafiq komitələri və hökumət tərəfindən müzakirə edilməli olan illik hesabat dərc etməli, lakin onun təsdiq edilməsindən asılı olmamalıdırlar.

36. Hakimiyyət orqanları və hüquq bərabərliyi orqanları bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi sahəsində əldə edilən irəliləyiş barədə daimi dialoq qurmalıdırlar. Hökumət və digər hakimiyyət orqanları hüquq bərabərliyi orqanları ilə əməkdaşlıq etməli, onların qanunvericilik, siyasət, prosedur, proqam və təcrübə ilə əlaqədar tövsiyələrini nəzərə almalıdırlar. Qanun hökumət və başqa hakimiyyət orqanlarının hüquq bərabərliyi orqanlarının tövsiyələrinə müəyyən vaxt müddəti çərçivəsində cavab verməli və ya onları icra etmək üçün tədbir görməli olduğunu müəyyən etməlidir.

37. Hüquq bərabərliyi orqanları maraqlı tərəflərin, xüsusilə vətəndaş cəmiyyəti təşkilatlarının hüquq bərabərliyi orqanlarının planlaşdırma işində və fəaliyyətində davamlı iştirakını və tövsiyələr vermələrini təmin etmək üçün strukturlar müəyyən etməlidirlər.

38. Hüquq bərabərliyi orqanının rəhbərliyi, məşvərət orqanları və işçi heyəti mümkün dərəcədə cəmiyyət daxili müxtəlifliyi əks etdirməli və gender balansını qorumalıdır.

39. Hüquq bərabərliyi orqanlarının işçi heyəti həvalə edilmiş bütün funksiya və səlahiyyətlərini icra etmək üçün tələb olunan çoxsaylı bacarıqlara malik olmalıdır.

## IX. Əlçatanlıq

40. Hüquq bərabərliyi orqanları hüquqlarını qorumaq üçün təsis edildikləri şəxslər üçün əlçatan olmalıdırlar. Əlçatanlıq aşağıdakıları tələb edir:

a. Əlçatan məkanlar, onlayn, e-poçt və telefon xidmətləri, orqanın xidmətlərindən istifadə etmək istəyənlərin vaxt məhdudiyyətlərini nəzərə alan, asanlıqla uyğunlaşdırıla bilən qrafik.

b. Yerli maarifləndirmə təşəbbüsləri, orqanın işinin aparılması üçün yerli və regional şöbələr.

c. Mühüm anlarda ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qruplarla işin aparılması və 12b bəndlərinə uyğun olaraq, onlarla davamlı əlaqələrin qurulması.

d. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərin hüquq bərabərliyi orqanları ilə məxfi, bildiyi dildə, üz-üzə əlaqə saxlamaq, şikayətlərini minimum qəbuledilənlik şərtləri ilə şifahi, onlayn və ya yazılı qaydada təqdim etmək imkanı.

e. Məkan, xidmət, prosedur və praktikaların əlilliyin bütün formalarının nəzərə alınması məqsədilə uyğunlaşdırılması.

f. Nəşrlərdə, xüsusilə hüquq və hüquq müdafiə vasitələri haqqında məlumat təmin edilən nəşrlərdə asan başa düşülən dildən istifadə, seçilmiş nəşrlərin ölkədə geniş istifadə edilən bütün dillərə tərcümə edilməsi.

g. Hüquq bərabərliyi orqanlarının funksiya və xidmətləri şikayətçilər və respondentlər üçün ödənişsiz olmalıdır.

h. Əlçatanlıq haqqında bu müddəaların ictimailəşdirilməsi üçün addımların atılması.

## X. Monitorinq

41. Bu Ümumi Siyasət Tövsiyəsinin icrasının monitorinqi ölkə monitorinqinin, İDAK və Avropa Şurasına üzv Dövlətlər arasında konstruktiv dialoqun bir hissəsini təşkil edəcək.

# İzahedici memorandum

## Giriş

1. Bu Ümumi Siyasət Tövsiyəsində əsas diqqət real təsir potensialı olan hüquq bərabərliyi orqanlarının təsis edilməsi və fəaliyyəti üçün lazım olan əsas elementlər üzərində cəmlənir. Belə orqanlar irqçilik və dözümsüzlüyün davamlı qaydada aradan qaldırılması və bərabərliyin inkişaf etdirilməsi üçün həyati əhəmiyyət daşıyır. Hüquq bərabəliyi orqanları insanların və institutlatın bərabərliyin əhəmiyyəti barədə məlumatlandırılması, eləcə də bərabərliyin reallığa çevrilməsi istiqamətində addımların atılmasına yardım sahəsində önəmli rol oynayırlar.

2. 1997-ci ildə 2 saylı Ümumi Siyasət Tövsiyəsinin ilkin variantının qəbul edilməsindən iyirmi il sona İDAK bu müddətdə formalaşmış çoxsaylı qabaqcıl təcrübə və təcrübələrin daxil edilməsi məqsədilə mətni yenidən nəzərdən keçirmək qərarı qəbul etdi. Orijinal mətndə istifadə edilən "ixtisaslaşmış milli orqanlar" ifadəsi hazırda belə orqanları bildirmək üçün geniş istifadə olunan "hüquq bərabərliyi orqanları" ifadəsi ilə əvəz edildi.

3. İki saylı ümumi siyasət tövsiyəsinin 1997-ci il tarixli ilkin variantı ilə birlikdə Aİ-nin bərabər rəftar haqqında direktivləri (2000/43/EC saylı Direktivin irqi və etnik mənşə əlamətlərinə görə ayrı-seçkilik haqqında 13-cü maddəsi, 2004/113/EC saylı direktivin 12-ci maddəsi, 2006/54/EC saylı direktivin 20-ci maddəsi, gender əlamətləri haqqında 2010/41/EU saylı direktivin 11-ci maddəsi) hüquq bərabərliyi orqanlarının inkişafı üçün hərəkətverici qüvvə rolu oynamışdır. Bu direktivlərin qəbul edilməsi ilə Aİ-yə üzv Dövlətlər hüquq bərabərliyi orqanları təsis etmək öhdəliyi qəbul etdilər.

4. Avropa Şurasına üzv dövlətlərin, demək olar ki, hamısı eyni zamanda BMT-nin 33.2-ci maddəsində bənzər öhdəlik nəzərdə tutulan Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyasını ratifikasiya etmişlər.

5. 2001-ci ilin Durban bəyanatı, BMT-nin irqçilik əleyhinə ümumdünya konfransının fəaliyyət proqramı, Avropa Şurasının insan hüquqları üzrə komissarı (CommDH (2011)2 saylı rəy) belə institutların təsis edilməsinə və möhkəmləndirilməsinə çağırış etmişlər. İnsan hüquqlarının təbliği və qorunması ilə məşğul olan milli institutlar haqqında Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən 20 dekabr 1993-cü il tarixində qəbul edilən Paris prinsipləri, eləcə də onların təfsiri və icrası haqqında Ümumi qeydlər hüquq bərabərliyi orqanlarının təsis edilməsi üçün vacib oriyentir rolu oynamışdır. BMT-nin İrqi Ayrı-seçkiliyin Aradan Qaldırılması üzrə Komitəsi bu sahədə əlavə əsaslı işlər həyata keçirmişdir.

6. Bu Ümumi Siyasət Tövsiyəsinə daxil olan tövsiyələr bu mətnlərə əsaslanır və həm üzv Dövlətlər, həm də hüquq bərabərliyi orqanlarının bərabərlik və sosial birliyə nail olmaq cəhdlərini daha da gücləndirmək üçün nəzərdə tutulur. Onlar heç bir halda mövcud hüquq bərabərliyi orqanlarının, yaxud onların müstəqillik və effektivlik sahəsində mövcud zəmanətlərinin məhdudlaşdırlması və ya zəiflədilməsi üçün istifadə edilə bilməz.

## I. Hüquq bərabərliyi orqanlarının təsis edilməsi

*Tövsiyənin 1-ci bəndi*

7. Üzv dövlətlər güclü hüquq bərabərliyi orqanı təsis etməlidirlər. Bəzi üzv Dövlətlər müxtəlif ayrı-seçkilik əlamətlərini (Tövsiyənin 4b bəndi), dövlət və özəl sektorun bütün sahələrini (Tövsiyənin 4c bəndi), üzv Dövlətin bütün ərazisini (Tövsiyənin 4d bəndi) və bu ümumi siyasət tövsiyəsində müəyyən edilən müxtəlif funksiyaları (Tövsiyənin 10-cu bəndi) əhatə etmək üçün birdən artıq hüquq bərabərliyi orqanı təsis etmişlər.

8. Lakin, həddən çoxsaylı orqanlardan təşkil edilmiş ifrat mürəkkəb sistemin təsis edilməsinin bir neçə riski mövcuddur: məhdud kadr və maliyyə resursları müxtəlif istiqamətlərə parçalana, orqanların etibarlılığı zərər görə bilər, insanlar hansı orqana müraciət etməli olduqlarını bilməyə bilərlər, dəyərli resurslar mandatın mahiyyəti üzrə işlərin görülməsinə hazır olmaq əvəzinə bu orqanlar arasında koordinasiyasının təmin edilməsi ilə məşğul olmaq məcburiyyətinə qala bilərlər. Birdən çox hüquq bərabərliyi orqanı təsis edildiyi və effektiv olduğu sübuta yetirildiyi halda hakimiyyət orqanları bu orqanlar arasındakı uyğunluq və əməkdaşlığı təmin etməlidirlər.

9. Hüquq bərabərliyi orqanlarının konstitusiya müddəaları əsasında təsis edilməsi güclü və əlavə zəmanətlər təklif edir, belə ki, hüquq bərabərliyi orqanının ləğv edilməsi və ya əhəmiyyətli surətdə zəifləşdirilməsi daha da çətinləşir. Buna görə də İDAK konstitusiya müddəalarından istifadəyə üstünlük verir. rqanın təşkilati strukturu barədə təfərrüatları ayrıca qanunla müəyyən edilə bilər. Hüquq bərabərliyi orqanları konstitusiya müddəaları əsasında təsis edilmədikdə, üzv Dövlətlər onları parlament tərəfindən qəbul edilən əsas və ya adi qanunlar əsasında təsis edə bilərlər.

10. Hüquq bərabərliyi orqanlarının fəaliyyəti və effektivliyi üçün daha bir özülü ayrı-seçkilik əleyhinə ətraflı və dəqiq qanunvericiliyin mövcudluğu təşkil edir. Bu qanunlarla əlaqədar təlimatlar İDAK-ın irqçilik və irqi ayrı-seçkiliyə qarşı mübarizə sahəsində ölkədaxili qanunvericilik haqqında 7 saylı Ümumi Siyasət Tövsiyəsində müəyyən edilir.

*Tövsiyənin 2-ci bəndi*

11. Hüquq bərabərliyi orqanları bərabərlik, ayrı-seçkilik və dözümsüzlük məsələlərini uyğun hesab etdikləri qaydada və hər hansı müdaxilə olmadan həll edə bilmək üçün (xüsusilə Dövlətdən) müstəqil olmalıdırlar. Bu, eyni zamanda onlara bərabərliyi təşviq etməyin və ona nail olmağın yeni üsullarını tapmaq və tətbiq etmək azadlığı verir. Müvafiq olaraq, müstəqillik hüquq bərabərliyi orqanlarının effektivliyinin və təsir imkanının ilkin şərtidir. Müstəqillik xüsusilə hüquq bərabərliyi orqanları hakimiyyət orqanlarından irəli gələn (struktur) ayrı-seçkilik problemləri ilə məşğul olan zaman və onlara şikayətlər üzrə qərar qəbul etmək funksiyası verildiyi təqdirdə önəmlidir (Ümumi siyasət tövsiyəsinin 10c bəndi).

12. Hüquq bərabərliyi orqanları həm "*de jure", həm "de facto"* müstəqilliyə malik olmalıdırlar. *"De jure"* müstəqillik üçün zəruri təminatlar hüquq bərabərliyi orqanını təsis edən konstitusion və hüquqi müddəalara daxil olmalıdır (bax: Ümumi siyasət tövsiyəsinin 3-cü bəndi). Bu elementlərə yanaşma ümumi siyasət tövsiyəsinin §§ 22-39-cu bəndlərində nəzərdən keçirilir.

13. Hüquq bərabərliyi orqanları ayrıca hüquq subyekti olmalı, üzv Dövlətin hüquq sisteminə uyğun olaraq müstəqil hüquqi şəxslər olmalıdırlar. Onların icraedici və qanunvericilik hakimiyyətindən kənarda saxlamaq tövsiyəsi bu orqanlar arasında qarşılıqlı fəaliyyəti istisna etmir. Əksinə, icraedici və qanunvericilik orqanları hüquq bərabərliyi orqanları ilə mandatlarına uyğun bütün məsələlər barədə məsləhətləşmə aparmalı və fikir mübadiləsi etməlidirlər. Eyni zamanda icraedici və ya qanunvericilik orqanları hüquq bərabərliyi orqanına strateji planlaşdırma, əməliyyat və fəaliyyətlər sahəsində təlimat vermək səlahiyyətinə malik olmamalıdırlar.

14. *"De facto"* müstəqillik o deməkdir ki, icraedici və qanunvericilik orqanları hüquq bərabərliyi orqanınıa dolayı yolla təlimat verməməli və ya qeyri-proporsional təsir göstərməməlidirlər. Belə təsir üsullarına büdcənin qeyri-proporsional qaydada azaltmaq və ya səriştə və səlahiyyətləri ləğv etmək, hüquq bərabərliyi orqanını, onun rəhbərlərini və ya işçi heyətini təhdid etmək, hüquq bərabərliyi orqanına təzyiq göstərmək üçün KİV-dən və ya başqa dövlət və ya özəl sektor müəssisələrindən istifadə daxildir. Hüquq bərabərliyi orqanlarının effektivliyini və müstəqilliyini belə qeyri-adekvat təsirdən qorumaq üçün qanuna bu orqanların

səlahiyyətləri və resursları ilə əlaqədar təminatlar daxil olmalıdır (bax: Ümumi siyasət tövsiyəsinin 3-28-ci bəndləri).

15. Hüquq bərabərliyi orqanında rəhbər vəzifə tutan şəxslər bu orqan üçün çalışan zaman müstəqilliyi önə çəkməli və qorumalıdırlar. Əlavə təminatlardan biri də icraedici, qanunvericilik orqanları və hüquq bərabərliyi orqanları arasındakı mübadilələrin mümkün olan maksimum dərəcədə aşıq və şəffaf olmasının təmin edilməsidir.

16. Hüquq bərabərliyi orqanının təsir imkanın təmin edilməsi üçün müstəqillik effektivliklə birləşdirilməlidir. Effektivlik o deməkdir ki, hüquq bərabərliyi orqanı öz funksiya və səlahiyyətlərini bərabərliyin əldə edilməsinə, ayrı-seçkilik və dözümsüzlüyün ləğv edilməsinə əhəmiyyətli təsir edəcək miqyasda və səviyyədə həyata keçirilməlidir. Hüquq bərabərliyi orqanları effektiv işləyə bilmək üçün xüsusilə müvafiq ümumi siyasət tövsiyəsinin 13-cü bəndinə müəyyən edilən səriştə, səlahiyyət və resurslara malik olmalıdırlar.

*Tövsiyənin 3-cü bəndi*

17. Hüquq bərabərliyi orqanını təsis edən mətnlə və ya konstitusiya müddəasına əsaslanma halında, hüquq bərabərliyi orqanı haqqında əlavə daha ətraflı qanunla tənzimlənməli olan əsas elementlər barədə təfərrüatlar bu ümumi siyasət tövsiyəsinin növbəti bəndlərində təsvir edilir.

*Tövsiyənin 4-cü bəndi*

18. Hüquq bərabərliyi orqanının mandatının tətbiq dairəsi geniş və əhatəli olmalı, bərabərliyin təşviqi və həyata keçirilməsinə yönəlmiş bütün fəaliyyətləri əhatə etməlidir. Bərabərliyə nail olmaq üçün hər iki aspekt əhatə edilməlidir: ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan insanların hüquqlardan bərabər istifadə imkanı, hüquqlarını həyata keçirmələri, eləcə də onların müxtəlif sahələrdəki fərdi və kollektiv vəziyyətlərinin təkmilləşdirilməsi. Bu sahələrə həmçinin təhsil, məşğulluq, mənzil təminatı, səhiyyə; siyasi nümayəndəlik, qərarlar üzərində güc və səlahiyyət; tanınma, status və mövqe; başqa qrup və institutlarla qayğıkeşlik, hörmət və həmrəyliyə əsaslanan münasibətlər daxildir.

19. Ayrı-seçkilik və dözümsüzlüyün qarşısının alınması və aradan qaldırılması - bərabərliyə nail olmaq istiqamətində özül daşı rolunu oynayır və irqçiliyin, (ksenofobiya, islamafobiya, antisemitizm və antigipsizm daxil olmaqla), homofobiya və transfobiyanın bütün formaları və onların nifrət nitqi və kiber nifrət kimi ifadə formaları ilə mübarizəni ehtiva edir. İDAK-ın nifrət nitqi ilə mübarizə haqqında 15 saylı ümumi siyasət tövsiyəsinin 8-ci bəndinə uyğun olaraq, hüquq bərabərliyi orqanının təsis edilməsi barədə mətn və ya ayrı-seçkilik əleyhinə qanunvericilik nifrət nitqinin ayrı-seçkiliyin bir forması olduğunu, hüquq bərabərliyi orqanlarının nifrət nitqinə qarşı ən azı mülki və inzibati qanunvericilik vasitəsilə tədbir görmək mandatına malik olduqlarını birmənalı qaydada müəyyən etməlidir. Nifrət cinayətləri ilə mübarizə sahəsində əsas səlahiyyətli orqanlar polis və prokurorluqdursa, hüquq bərabərliyi orqanları nifrət cinayətinə məruz qalmış şəxslərə şəxsi dəstək və hüquqi məsləhət təmin etmək və onları səlahiyyətli orqanlara yönləndirmək səlahiyyətilərinə malik olmalıdırlar (bax: İzahedici memorandumun 72 və 81-ci bəndləri).

20. Struktur ayrı-seçkilik institutlarda və başqa sosial strukturlarda mövcud olan qrup və ya fərdlərin başqaları ilə eyni hüquq və imkanlardan istifadə imkanı qarşısında bilərək və ya bilməyərək əngəl törədən, onları əhalinin böyük hissəsi ilə müqayisədə daha əlverişsiz mövqedə olmasına töhfə verən qayda, norma, prosedur, münasibət və davranış modellərinə aiddir. Hüquq bərabərliyi orqanları struktur ayrı-seçkiliklə mübarizəyə xüsusi diqqət yetirməlidirlər, belə ki, (i) struktur ayrı-seçkilikdə iştirak edən şəxslər çox vaxt fəaliyyətlərinin ayrı-seçkilik təsirinə malik olduğunu bilmirlər, (ii) struktur ayrı-seçkilik daha çox sayda insana müntəzəm

olaraq təsir edir, (iii) təcrid olunan şəxslər çox vaxt güclü institutlar daxilində kök salmış struktur ayrı-seçkiliyə qarşı çıxmaq imkanına malik olmurlar.

21. Müxtəlifliyin təbliği - cəmiyyət daxilində müxtəliflik və onun qatdığı əlavə dəyərin qiymətləndirilməsi deməkdir. Bura müxtəlifliyin praktiki nəticələrinin nəzərə alınması məqsədilə məntiqi baxımdan məqbul düzəlişlərin edilməsi daxildir.Cəmiyyət daxilində müxtəlif qruplar arasında yaxşı münasibətlərin təbliği ayrı-seçkilik və dözümsüzlüklə mübarizənin davam etdirilməsi ilə yanaşı qarşılıqlı hörmət, anlayış və inteqrasiyanın dəstəklənməsini əhatə edir.

22. İDAK-ın mandatı ümumi siyasət tövsiyəsinin 4b bəndində sıralanan konkret ayrı-seçkilik əlamətləri və Avropa İnsan Hüquqları Konvensiyasının 14-cü maddəsi, eyni Konvensiyanın 12 saylı Protokolunun 1-ci maddəsində əhatə olunan əlamətlərə əsaslanan çoxsaylı və sektorlararası ayrı-seçkiliklə məhdudlaşır. Çoxsaylı hüquq bərabərliyi orqanlarının mandatları həmçinin bu müddəalarda qeyd edilən, lakin İDAK-da nəzərdə tutulmayan əsasları əhatə edir. Ümumi siyasət tövsiyəsinə daxil olan tövsiyələr İDAK mandatının əhatə etmədiyi əlamətlərə görə cavabdeh olan hüquq bərabərliyi orqanlarına "*mutatis mutandi*" (müvafiq düzəlişlər edilməklə) tətbiq edilə bilər.

23. Gender perspektivi hüquq bərabərliyi orqanlarının işinin ayrılmaz hissəsini təşkil etməlidir. Bu, qadın və kişilərin ehtiyaclarının, vəziyyət və təcrübələrinin hüquq bərabərliyi orqanlarının plan və fəaliyyətlərində bərabər səviyyədə nəzərə alınıb-alınmadığının təhlilini əhatə edir.

24. Eyni zamanda transgender və interseks şəxslərin vəziyyəti binar gender təsnifatını rədd edən təhlil çərçivəsində nəzərə alınmalıdır (Avropa Şurasının insan hüquqları üzrə komissarı (2015), insan hüquqları və interseks şəxslər, səhifə 37-dən).

25. Çoxaspektli ayrı-seçkilik dedikdə, bir və bir neçə əlamət əsasında yaşanılan ayrı-seçkilik nəzərdə tutulur. Sektorlararası ayrı-seçkilik - eyni zamanda bir neçə ayrı-seçkilik əlamətinin birləşib ayrılmaz vahidə çevrilərək yeni ayrı-seçkilik əlaməti yaratdığı vəziyyətə aid edilir. (1c bəndi və İDAK-ın məşğulluq sahəsində irqçilik və irqi ayrı-seçkiliklə mübarizə haqqında 14 saylı ümumi siyasət tövsiyəsinin İzahedici memorandumu). Çoxsaylı və sektorlararası ayrı-seçkilik çox vaxt qurbanlara xüsusilə güclü təsir etdiyindən və belə insanların kimlik və təcrübələri xüsusilə müxtəlif olduğundan hüquq bərabərliyi orqanları bu məsələlərə xüsusi diqqət yetirməlidirlər. Hüquq bərabərliyi orqanları bənzər qaydada ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan uşaqların ehtiyaclarını nəzərə almalıdır.

26. Müxtəlif ayrı-seçkilik əlamətlərinin tərifləri ilə İDAK-ın Nifrət nitqi ilə mübarizə haqqında ümum siyasət tövsiyəsinin izahedici memorandumun 7-ci bəndlərində tanış olmaq mümkündür.

27. Hüquq bərabərliyi orqanları hüquq mühafizəsi daxil olmaqla, özəl sektor və dövlət sektorunu bütövlükdə əhatə etməlidir (İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin 7-ci bəndi). Lakin çoxsaylı hüquq bərabərliyi orqanları, xüsusən Aİ hüquq bərabərliyi direktivləri əsasında təsis edilən hüquq bərabərliyi orqanları dövlət sektorunu tam əhatə etmirlər və ictimai asayişin qorunması, təcrid müəssisələri və hərbiyyə kimi funksiyalarda səlahiyyətli deyillər (bax: İDAK-ın ictimai asayişin qorunması sahəsində irqçilik və irqi ayrı-seçkiliklə mübarizə haqqında 11 saylı ümumi siyasət tövsiyəsi). Onların mandatı uzadılmalıdır və ya Milli İnsan Hüquqları İnstitutu və ya Ombudsman institutu kimi başqa müstəqil orqana bu sahələrdə bərabərlik məsələləri üzrə mandat verilməlidir.

28. Üzv Dövlətin bütün regionları (xüsusən federal struktura malik ölkələrdə) tam və əlaqəli şəkildə əhatə olunmalı, heç bir ərazi hüquq bərabərliyi orqanının əhatə dairəsindən kənarda qalmamalıdır. Müvafiq olduqda, mandat həmçinin xaricdə yaşayn vətəndaşlar və ya ölkədən kənarda sığınacaq axtaran insanlar kimi müəyyən şəxsləri də əhatə etməlidir.

## II. İnstitusional struktur

*Tövsiyənin 5-9-cu bəndləri*

29. Son onilliklərdə 47 üzv Dövlətdə hüquq bərabərliyi orqanlarının zəngin və müxtəliflərlə dolu sistemi formalaşmışdır. Təfərrüatlar İDAK-ın ölkələrin monitorinqi haqqında hesabatında əksini tapır.

30. Bəzi üzv Dövlətlərdə çoxsaylı əlamətləri əhatə etmək üçün bir hüquq bərabərliyi orqanı, digərlərində isə bir və ya çoxsaylı əlamətləri əhatə etmək üçün bir neçə hüquq bərabərliyi orqanı təsis edilmişdir. Bütün hallarda əlamətlər arasında meydana gələn hər hansı iyerarxiyadan yayınmaq və hər bir əlamət və onlar arasındakı kəsişmələrə adekvat diqqət və müvafiq resursların yönədlilməsini təmin etmək vacibdir.

31. Ayrıca təşkilat kimi fəaliyyət göstərən hüquq bərabərliyi orqanları diqqətlərini hüquq bərabərliyi mandatı üzərində cəmləşdirmək üstünlüyünə malikdirlər, hüquq bərabərliyi məsələləri üçün ayrıca büdcəyə sahibdirlər və bu sahədə konkret səriştə və nüfuz formalaşdırırlar.

32. Bəzi üzv Dövlətlərdə bərabərlik məsələləri üzrə mandat insan hüquqları mandatı və/və ya ombudsman mandatını əhatə edən çoxmandatlı instituta həvalə edilmişdir. Başqa üzv Dövlətlərdə isə vahid və çox əlamətli bərabərlik orqanları milli insan hüquqları institutları və ombudsman institutları ilə birləşdirilmişdir.

33. Hüquq bərabərliyi mandatının çoxmandatlı instituta həvalə edilməsi bütün mandatların istifadəsi vasitəsilə bərabərlik, ayrı-seçkilik və dözümsüzlük məsələlərinin daha ətraflı və daha effektiv həlli üçün müsbət potensiala malik ola bilər. Lakin bu potensialı gerçəkləşdirmək üçün müxtəlif mandatlar arasında səmərəli əlaqəlilik və inteqrasiyaya nail olmaq baxımından güclü və yenilikçi rəhbərlik tələb olunur.

34. Belə çoxmandatlı institutlarda xüsusən birləşmədən sonra gərginliklər yarana bilər. Hər bir mandatın öz ənənəsi, yanaşması və məqsədləri mövcuddur. Orqanın təsirini gücləndirmək üçün bu müxtəlifliyə hörmət etmək və onu qorumaq, birləşdirilmiş mandatların inteqrasiyasını davam etdirmək vacibdir.

35. Ümumi siyasət tövsiyəsinin 7-ci bəndinə belə institutların bərabərlik məsələləri üzrə mandatına lazımi diqqətin təmin edilməsinə yönəlmiş tövsiyələr daxildir. Hüquq bərabərliyi məsələləri üzrə mandatın dəqiq strukturu bu mandatın icra edilməsi üçün məsuliyyəti artırır. Bundan əlavə, hüquq bərabərliyi məsələləri üzrə mandat üçün strateji plan mövcud olmalıdır (bax: ümumi siyasət tövsiyəsinin 33-cü bəndi) və hüquq bərabərliyi məsələləri ilə əlaqədar fəaliyyətlərin icrası elə təşkil edilməlidir ki, bu mandatın etibarlılığı təsdiq edilsin. Məşvərət komitəsi (bax İzahedici memorandumun 114-cü bəndi) hüquq bərabərliyi məsələləri üzrə mandatın təsirini təkmilləşdirməyə kömək edə bilər. “Bərabərlik” ifadəsi həmçinin institutun adına daxil edilə bilər.

36. Hüquq bərabərliyi orqanlarının çoxmandatlı institutlar daxilində birləşdirilməsini və ya yerləşdirilməsini nəzərdə tutan yanaşma yalnız bərabərlik məsələləri üzrə mandatı zəiflətmədikdə və bu mandat üçün müfaviq diqqət və resurslar təmin edildiyi təqdirdə qəbul edilməlidir. Əks halda, ayrıca bir orqanın təsis edilməsinə və ya mühafizə edilməsinə üstünlük verilməlidir.

37. Çoxmandatlı institutun mandatı dövlət sektoru ilə məhdudlaşdığı halda onun bərabərlik məsələləri üzrə mandatı özəl sektora da şamil edilmək məqsədilə genişləndirilməlidir (mövcud mandat yalnız özəl sektoru əhatə etdikdə isə əksinə). Hüquq bərabərliyi orqanına əlavə mandatın verilməsindənsə buna üstünlük verilir.

38. Hüquq bərabərliyi orqanları çoxmandatlı institutun bir hissəsini təşkil etdiyi halda bu ümumi siyasət tövsiyəsinə daxil olan tövsiyələr mümkün dərəcədə bütün instituta tətbiq edilməlidir. Ümumi siyasət tövsiyəsinin bəzi tövsiyələri institutun

yalnız bərabərlik sahəsindəki fəaliyyətlərinə, hüquq bərabərliyi orqanının müstəqilliyi kimi digər tövsiyələr isə bütövlükdə instituta şamil edilməlidir.

39. Üzv Dövlətlər çoxmandatlı institutlarda hər bir mandatla əlaqədar səriştə və səlahiyyətləri mümkün dərəcədə uzlaşdırmalıdırlar. Bəzi hallarda müəyyən səriştə və səlahiyyətlər belə çoxmandatlı institutlara bütün mandatlarla deyil, bir mandatla əlaqədar verilir. Başqa hallarda isə belə səriştə və səlahiyyətlərin həyata keçirilməsi meyarları mandatdan mandata dəyişir. Effektiv müdafiəyə nail olmaq, bütün mandatlara təsir etmək məqsədilə bu fərqlər aradan qaldırılmalıdır və fərqli mandatlar arasında bu uzlaşdırma mümkün dərəcədə ən yüksək standarta uyğunlaşdırılmalıdır ("ən yüksək göstərici əsasında bərabərləşdirmə").

40. Sayları birdən artıq olduqda, hüquq bərabərliyi orqanları bir-birləri, eləcə də milli insan hüquqları institutları və ombudsman institutları daxil olmaqla, başqa insan hüquqları institutları ilə əlaqə saxlamalı və əməkdaşlıq etməlidirlər. Bu koordinasiya və əməkdaşlığın məqsədi hüquq bərabərliyi məsələləri üzrə mandatın ümumi təsirini maksimuma çatdırmaq olmalıdır. Onlar həmçinin bərabərlik məsələlərinin mümkün qədər geniş əhatə olunmasını, sektorlararası xarakter daşıyan məsələlərin lazımi qaydada həll edilməsini, işlərin mübadilə edilməsini və üst-üstə düşən səylərin təkrar göstərilməməsini təmin etməlidirlər. Bu koordinasiya və əməkdaşlıq planlaşdırma prosesində dialoqların aparılmasını, işdə birgə təşəbbüslərin göstərilməsini, davamlı qarşılıqlı ünsiyyəti nəzərdə tutur.

## III. Funksiyalar

*Tövsiyənin 10-12-ci bəndləri*

41. Hüquq bərabərliyi orqanları müxtəlif funksiyalar yerinə yetirirlər. Bu ümumi siyasət tövsiyəsində aşağıdakı ifadələrlə adlandırılan üç əsas funksiya müəyyən edilə bilər: (i) bərabərliyin təbliği və ayrı-seçkiliyin qarşısının alınması (təbliğat və qarşısını alma funksiyası), (ii) ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərə dəstək və onlar adından məhkəməyə müraciət (dəstək və məhkəməyə müraciət funksiyası) və (iii) şikayətlər barədə qərarların qəbulu (qərarvermə funksiyası).

42. İDAK-ın ölkə monitorinqi hesabatlarında qeyd edildiyi kimi, üzv dövlətlərdə bu funksiyalarla əlaqədar vəziyyət də müxtəlifdir: bəzi üzv Dövlətlərdə hər üç funksiya hüquq bərabərliyi orqanlarına həvalə edilir, digərlərində isə yalnız bir və ya ikisi. Bəzi üzv Dövlətlər bütün funksiyaları eyni hüquq bərabərliyi orqanına həvalə ediblərsə, digərləri bu funksiyaları müxtəlif hüquq bərabərliyi orqanları arasında bölüşdürmüşlər. Bəzi üzv Dövlətlərdə qərarvermə funksiyası bütövlükdə məhkəmə orqanlarına həvalə edilib: digərlərində isə dəstək və məhkəməyə müraciət funksiyası, eləcə də təbliğat və qarşısını alma funksiyası qismən və ya tamamilə vətəndaş cəmiyyətinə və başqa institutlara həvalə edilib. Eyni zamanda hökumət və hakimiyyət orqanları da bir qayda olaraq təbliğat və qarşısını alma funksiyasına əhəmiyyətli töhfə verirlər.

43. İDAK hesab edir ki, 2 saylı ümumi siyasət tövsiyəsinin 24-cü bəndində də tövsiyə etdiyi kimi, bütün üzv Dövlətlər hüquq bərabərliyi orqanlarına (i) təbliğat və qarşısını alma, (ii) dəstək və məhkəməyə müraciət funksiyalarını həvalə etməlidirlər. Hüquq bərabərliyi orqanı ilə yanaşı vətəndaş cəmiyyəti təşkilatları da bu iki funksiya ilə əlaqədar dəyərli töhfə verə bilərlər və verməlidirlər. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan insanlar çox vaxt əvvəl vətəndaş cəmiyyəti təşkilatlarına müraciət edirlər, onlar isə həmin şəxsləri hüquq bərabərliyi orqanına müraciət etməyə təşviq edir və bunun üçün lazımi yardımı göstərirlər. Hüquq bərabərliyi orqanları və vətəndaş cəmiyyəti təşkilatları ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan insanların hüquqlarının icrası üçün ən yaxşı həll yolunu tapmaq məqsədilə bu sahələrdə əməkdaşlıq etməli, səylərini əlaqələndirməlidirlər.

44. Bundan əlavə, üzv Dövlətlər ayrıca hüquq bərabərliyi orqanına qərar qəbulu funksiyasını həvalə edə bilərlər və ya bu funksiaynı bütövlükdə məhkəmə orqanlarına tapşıra bilərlər. Qərarvermə funksiyasına malik olan hüquq bərabərliyi orqanları ayrı-seçkiliklə əlaqədar işlərə məhkəmə orqanları ilə müqayisədə daha əlçatan, daha az mübahisəli və daha ixtisaslaşmış qaydada baxa bilərlər. Onlar ayrı-seçkiliklə bağlı bütün işlərin bir orqan qarşısında toplanması vasitəsilə ekspert biliklərinin və ardıcıl məhkəmə praktikasının formalaşmasına imkan yaradır, bununla da ayrı-seçkilik əleyhinə qanunvericiliyin icrasına töhfə verirlər. Ayrı-seçkiliklə bağlı işlərin kiçik sayda məhkəmə orqanında və ya məhkəmə palatalarında və ya ixtisaslaşmış bölmələrdə toplanması ilə məhkəmə orqanlarında da bənzər ixtisaslaşmaya nail olmaq mümkündür.

45. Dəstək və məhkəməyə müraciət funksiyası və qərarvermə funksiyasının müxtəlif orqanlara həvalə edilməsinə üstünlük verilməlidir. Hüquq bərabərliyi orqanları qərar qəbulu funksiyasını yerinə yetirərkən tərəfsiz olmalı, dəstək və məhkəməyə müraciət funksiyasını həyata keçirən zaman isə şikayətçinin vəkili kimi onun tərəfində çıxış etməlidirlər. Hər iki funksiyanın eyni orqana həvalə edilməsi maraqlı tərəflərin tərəfsizliyə etimadına mənfi təsir edə bilər. Bu isə qərarvermə funksiyasının etibarlı şəkildə həyata keçirilməsinin ayrılmaz şərtidir.

46. Buna baxmayaraq, hər iki funksiya eyni orqana həvalə edilərsə, hər bir funksiya fərqli bir bölmə ya işçi heyəti tərəfindən yerinə yetirilməlidir və bu, ictimaiyyətə aydın olmalıdır.

47. Həm qərar qəbulu, həm də təbliğat və qarşısını alma və/və ya dəstək və məhkəməyə müraciət funksiyalarına cavabdeh olan orqanlar çox vaxt çoxsaylı işlər çərçivəsində vaxtlı-vaxtında yüksək keyfiyyətli qərarların qəbul edilməsini təmin etmək məqsədilə resurslarının çox hissəsini qərar qəbulu funksiyasına sərf etməli olurlar. Belə orqanların həm dəstək və məhkəməyə müraciət, həm də təbliğat və qarşısını alma funksiyalarını adekvat səviyyədə yerinə yetirə bilməmək təhlükəsi mövcud olduğundan, onların bu iki funksiya üçün adekvat resurslara malik olmasının təmin edilməsi vacibdir.

48. Hüquq bərabərliyi orqanları müxtəlif vaxtlarda mandatlarının, funksiyalarının və səlahiyyətlərinin hansı hissəsini diqqət mərkəzində saxlayacaqlarını seçməkdə (o cümlədən strateji planlaşdırma kontekstində (bax: ümumi siyasət tövsiyəsinin 33-cü bəndi)) azad olmalıdırlar. Bu onlara öz strategiyalarını və fəaliyyətlərini vəziyyətin konkret tələblərinə uyğunlaşdırmaq, daim dəyişən mühitə adaptasiya olmaq imkanı verir. Bu ehtiyaclara uyğunlaşmaq bacarığı həm də məhdud resurslardan ən optimal istifadə üçün zəruridir.

## IV. Təbliğat və qarşısını alma səlahiyyətləri

*Tövsiyənin 13-cü bəndi*

49. Hüquq bərabərliyi orqanları təbliğat və qarşısını alma funksiyasını yerinə yetirə bilmək üçün bir sıra səlahiyyətlərə ehtiyac duyur. Ümumi siyasət tövsiyəsinin 13a bəndində təsvir edilən ilk səlahiyyət tövsiyənin 4-cü bəndinə müəyyən edilən geniş mandatın icrası məqsədilə bir sıra təbliğat və qarşısını alma fəaliyyətlərinin öhdəliyə götülüməsidir. Ümumi siyasət tövsiyəsinin 13-cü bəndinin aşağıdakı hissələri ən vacib elementləri daha ətraflı təsvir edir.

50. Hüquq bərabərliyi orqanları ilə ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxs və qruplar arasında dialoq təbliğat və qarşısını alma funksiyasının planlaşdırılması və müvəffəqiyyətlə icrası üçün baza yaradır. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qruplar və onların nümayəndələri ilə müntəzəm və əhatəli dialoqlar belə qrupların üzləşdikləri ayrı-seçkilik və dözümsüzlük hallarının tam spektri, eləcə də onların vəziyyətlərinin yaxşılaşdırılması üçün birinci növbədə həll edilməli olan məsələlər haqqında biliklərin əldə edilməsini təmin edir. Bu həmçinin səciyyəvi fərdi və struktur ayrı-seçkilik modellərində uğurlu həll yollarının müəyyən edilməsinə imkan yaradır.

51. Bu dialoq ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların vəziyyətinin və narahatlıqlarının başa düşülməsinə; belə qrupları və təmsil etdikləri təşkilatları hüquq bərabərliyi orqanının fəaliyyət və strukturlarına cəlb etməyə; səriştə və biliklərin bölüşülməsi ilə qarşılıqlı tədris proseslərini başlatmağa; etibarın formalaşdırılması, ayrı-seçkilik və dözümsüzlük hallarının bildirilməsinin dəstəklənməsi məqsədilə icmalar daxilində hüquq bərabərliyi orqanlarının müntəzəm mövcudluğunu təmin etməyə yönəlməlidir.

52. Dialoq sosial qrupların geniş dairəsini əhatə etməli və çox müxtəlif təşkilatları, məsələn, bu icmalar daxilindəki xalq səviyyəsindəki təşkilatları, azlıqların məsələləri üzrə məsləhətçi orqanları, dini icmaları, vətəndaş cəmiyyəti orqanlarını, həmkarlar ittifaqları və peşəkar təşkilatlar kimi ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qruplarla işləyən digər maraqlı tərəfləri cəlb etməlidir.

53. Hüquq bərabərliyi orqanları mandatları daxilində bütün məsələlərlə öz təşəbbüsləri əsasında məşğul olmaq hüququna malik olmalıdırlar. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan insanlar çox vaxt həssas vəziyyətdə olduqlarından və struktur ayrı-seçkilərlə təklikdə mübarizə apara bilmədiklərindən, hüquq bərabərliyi orqanları institutlar daxilində konkret qruplar üçün əlverişsiz mövqenin yaranması ilə nəticələnən, bəzən gözəgörünməz olan norma və proseslərin təsbit, ifşa və həll edilməsi üçün öz təşəbbüsləri ilə araşdırma apara (bəzi üzv Dövlətlərdə təhqiqat ifadəsindən istifadə edilir), sübutlar toplaya bilərlər. Bu araşdırma fəaliyyətləri ayrı-seçkilik və ya dözümsüzlük faktlarının açılmasında və təsbit edilməsində vacib əhəmiyyət daşıyır və son nəticədə onların aradan qaldırılmasına töhfə verir. Hüquq bərabərliyi orqanları konkret şəxslərlə əlaqədar iş və araşdırmalarda yalnız onların razılığı əsasında hərəkət etməlidirlər.

54. Araşdırma ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzləşdikləri problemləri müəyyən və təhlil etmək, onların öhdəsindən gəlmək üçün lazımi bilik və anlayışın formalaşdırılması üçün vacib vasitədir. Bərabərlik, ayrı-seçkilik və dözümsüzlük barədə kəmiyyət və keyfiyyətlə bağlı etibarlı məlumatlar - geniş ictimaiyyətin, siyasətlərin müəyyən edilməsinə və həyata keçirilməsinə görə məsul dairələrin ayrı-seçkilik və dözümsüzlüyün mahiyyət və miqyası haqqında məlumatlandırılması baxımından fundamental əhəmiyyətə malikdir. Bu həmçinin bərabərliyə nail olmaq üçün vasitələri müəyyən etməyə, qərarların qəbul edilməsinə görə məsul dairələri vəziyyətin düzəldilməsinə təşviq etməyə kömək edir. Araşdırma və məlumatlar həmçinin fəaliyyətlərin planlaşdırılması, icrası, monitorinqi və qiymətləndirilməsinə kömək edir.

55. Araşdırma geniş diapazonlu fəaliyyətləri əhatə edir və orqanın özü tərəfindən həyata keçirilə sorğu və tədqiqatlar, toplanan məlumatları, bərabərlik məsələlərinə aid sorğuların, araşdırmaların və müxtəlif mənbələrdən toplanan məlumatların təhlilini ehtiva edir. Bərabərlik, ayrı-seçkilik və dözümsüzlük sahəsinə məhkəmə praktikasının toplanması və sistemləşdirilməsi də əlavə dəyər təmin edir.

56. Hüquq bərabərliyi orqanları öz maarifləndirmə fəaliyyətləri vasitəsilə açıq və gizli ayrı-seçkiliyin necə təşəkkül tapdığının başa düşülməsini təşviq etməli, bərabərliyin artması üçün nə edilməli olduğu barədə bilikləri yaymalıdırlar. Hüquq bərabərliyi orqanları bərabər rəftar haqqında qanunvericilik çərçivəsində mövcud hüquqlar, hüquqi müdafiə vasitələri və öhdəliklər haqqında məlumat təmin etməli, cəmiyyət və institutlar daxilində bərabərlik və müxtəlifliyin dəyərləndirilməsini dəstəkləməldirilər.

57. Bu fəaliyyətlər geniş ictimaiyyət, siyasətçilər, rəsmi şəxslər, qərarların qəbuluna görə məsul dairələr, işçilər, həmkarlar ittifaqları, insan resursları sahəsinin mütəxəssisləri, xidmət təminatçıları, dövlət sektoru və özəl sektorda çalışanlar, pedaqoqlar, dini icmalar, vətəndaş cəmiyyəti təşkilatları, məhkəmə orqanları və başqa hüquqşünaslar, polis və tibbi heyət daxil olmaqla, geniş auditoriyalara ünvanlanmalıdır.

58. Hüquq bərabərliyi orqanları ayrı-seçkilik və ya dözümsüzlüyə məruz qalan şəxs və qruplar üçün konkret maarifləndirmə fəaliyyətləri formalaşdırmalıdırlar. Bu şəxs və qruplara ayrı-seçkilik və dözümsüzlüyün öhdəsindən gəlməkdə kömək etmək və onların imkanlarının genişləndirilməsi - belə şəxs və qruplarının vəziyyətlərinin yaşılaşdırılması istiqamətində əhəmiyyətli töhfədir. Birinci addım bərabər rəftar və nifrət nitqi, eləcə də də nifrət nitqi haqqında qanunvericilik barədə bilikləri yaymaq, ayrı-seçkilik və dözümsüzlüyün normal qəbul edilməsi və heç nəyi dəyişməyin mümkün olmadığına inanılması hallarını aradan qaldırmaqdır. Hüquq bərabərliyi orqanları ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrup üzvlərinin fərdi və birgə potensiallarını - onlara hüquqları, mövcud hüquqi müdafiə vasitələri və onları necə icra edə biləcəkləri barədə təlimlərin keçilməsi vasitəsilə - daha da gücləndirməlidirlər. Bundan əlavə, hüquq bərabərliyi orqanları mandatlarına əsasən onları qorumalı olan polis, prokurorluq, KİV sahəsində tənzimləyici orqanlar, təhsil və məşğulluq sahəsinin inspektorları kimi başqa orqanlara da çıxış imkanını yüngülləşdirməlidirlər. Hüquq bərabərliyi orqanları bu institutlarla birlikdə ayrı-seçkilik və dözümsüzlük hallarının kifayət qədər bildirilməməsinin kökündə dayanan səbəbləri təhlil etməli, ayrı-seçkilik və dözümsüzlük hallarının sistemli olaraq səlahiyyətli orqanlara bildirilməsini təmin etmək üçün zəruri addımları atmalıdırlar.

59. Hüquq bərabərliyi orqanları bərabərlik, ayrı-seçkilik və dözümsüzlük sahəsində qabaqcıl təcrübənin formalaşmasını, mübadilə və icrasını təbliğ etməlidirlər. Siyasətçilərə, yüksək vəzifəli şəxslərə, qərar qəbuluna görə məsul olan başqa şəxslərə, dövlət sektorunda və özəl sektorda təmsil olunan institutlara xüsusi diqqət yetirilməlidir. Hüquq bərabərliyi orqanları siyasət quruculuğu və qanunvericilik prosesinə bərabərlik perspektivinin daxil edilməsi, daxili bərabərlik və müxtəliflik sistemlərinin və zəmanətləriin icrası üçün rəhbərlik və dəstək təmin etməlidir. Bərabərlik sahəsində qabaqcıl təcrübələrə təşkilat və ya cavabdehlik sahəsi daxilində bərabərlik siyasətlərinin hazırlanması və icrası, bərabərliyin təmin edilməsinə görə məsul vəzifənin təsis edilməsi, işçi heyətinin təlimi, qeyri-bərabərliyə məruz qalanlarla konsultasiya, bərabərlik barədə məlumatların toplanması, bərabərliyin inkişaf etdirilməsi, ayrı-seçkilik və dözümsüzlüyün qarşısının alınması haqqında başlıca qərarlarının təsirinin qiymərləndsirilməsi daxildir. Belə qabaqcıl təcrübələrə həmçinin anonim işə müraciət prosedurlarından istifadə, ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzvlərinin kimlik sənədlərinə çıxışlarının asanlaşdırılması və ya məktəblərə yazılmalarının asanlaşdırılması daxil ola bilər.

60. İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin 5-ci bəndinə uyğun olaraq, müsbət fəaliyyətə ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış qrupların qarşılaşdıqları əlverişsiz şərtlərin qarşısının alınması və ya kompensasiya edilməsi, onların həyatın bütün sahələrində tam iştirakının asanlaşdırılması daxildir. Hüquq bərabərliyi orqanları xüsusilə dərin kök almış, uzunmüddətli struktur ayrı-seçkiliyin mövcud olduğu sahələrdə müsbət fəaliyyətin istifadəsini təbliğ etməlidirlər. Nümunələrə ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış qruplara məktəbə qədər və məktəb təhsili sahəsində xüsusi dəstəyin göstərilməsi, belə qrupların üzvlərinin dövlət və özəl sektorlarda məqsədyönlü işə qəbulu daxildir.

61. İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin 2-ci bəndinə uyğun olaraq, ayrı-seçkilik əleyhinə ölkədaxili qanunvericilik dövlət orqanları üzərinə bərabərliyi təşviq etmək, funksiyalarını yerinə yetirən zaman ayrı-seçkiliyin qarşısını almaq vəzifəsi qoymalıdır. Qanuna əsaslanan belə vəzifənin hələ mövcud olmadığı üzv Dövlətlərdə hüquq bərabərliyi orqanları bu tövsiyənin icrasını təşviq etməlidirlər.

62. Bu vəzifə qanunla nəzərdə tutulduğu halda isə hüquq bərabərliyi orqanları bərabərlik məsələlərinin dövlət orqanlarının bütün fəaliyyətlərinə daxil edilməsini tələb edən bu ümumi öhdəlik barədə məlumatlılığı artırmalı və onun icrasını monitorinq etməlidirlər. Bu məqsədlə hüquq bərabərliyi orqanları, məsələn, bərabərliyin təsirlərinin qiymətləndirilməsi və bərabərlik proqramları üçün

təlimatları əhatə edə biləcək standartlar hazırlamalıdırlar (bununla əlaqədar olaraq bax: İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin İzahedici memorandumunun 27-ci bəndi, İDAK-ın 14 saylı ümumi siyasət tövsiyəsinin İzahedici memorandumunun 1-ci bəndi, ictimai asayişin qoruması və təhsil sektorları üçün bax: 11 saylı ümumi siyasət tövsiyəsinə daxil olan tövsiyələr və 10 saylı ümumi siyasət tövsiyəsinin II bölməsinin 1-ci bəndi). Bundan əlavə, hüquq bərabərliyi orqanları belə standartların icrası zamanı təlimlər və istiqamətləndirici materiallar vasitəsilə hakimiyyət orqanlarına yardım etməli, monitorinq və təsirlərin dəyərləndirilməsi vasitəsilə onların müntəzəm qiymətləndirilməsində iştirak etməldirilər. Müvafiq hallarda hüquq bərabərliyi orqanları belə standartların icrasını təmin etməli və ya səlahiyyətli orqanlar və ya məhkəmələrə müraciət vasitəsilə icra edilməsinə çalışmalıdırlar.

63. Federal, regional və yerli səviyyələrdə qanunvericilik aktlarını monitorinq etmək səlahiyyəti ümumi siyasət tövsiyəsinin 14-cü bəndinə müvafiq olaraq məhkəməyə müraciət vasitəsilə etiraz etmək səlahiyyəti ilə tamamlanmalıdır.

64. Hüquq bərabərliyi orqanları təşkilatları bərabərlik və ayrı-seçkilik sahəsində ilkin və davamlı təlimlərin hazırlanmasına və keçirilməsinə həvəsləndirməli və bu işdə onlara yardım etməlidirlər. Əsas hədəf qruplarına siyasətçilər, yüksək vəzifəli şəxslər, qərar qəbuluna görə məsul digər şəxslər, işçilər, insan resursları sahəsinin mütəxəssisləri, həmkarla ittifaqları, məhkəmə orqanları və başqa hüquqşünaslar, polis, tibbi heyət, pedaqoqlar, şirkətlər və xidmət təminatçıları daxil olmalıdır. Hüquq bərabərliyi orqanları xüsusilə başqa təminatçıların olmadığı hallarda belə təlimləri özləri təmin etməlidirlər.

65. Hüquq bərabərliyi orqanları real təsir nümayiş etdirə bilmək üçün işlərini tövsiyələrinin verilməsi ilə bitmiş hesab etməməli, həmçinin onların icrasını monitorinq etməlidirlər. Əksər hallarda tövsiyənin ünvanlandığı tərəflərlə açıq dialoqun formalaşdırılması yaxşı nəticə verir. Hüquq bərabərliyi orqanları tövsiyələrini izah edə, onların necə icra edilə biləcəyini nümayiş etdirə, məsul şəxsləri zəruri addımları atmağa təşviq edə bilərlər. Hüquq bərabərliyi orqanları tövsiyələrin icrasındakı irəliləyişi izləməli, müntəzəm olaraq işin gedişatı barədə icmal dərc etməlidirlər.

66. Hüquq bərabərliyi orqanları həmçinin başqa bənzər orqanların verdikləri müvafiq tövsiyələrin monitorinqinə və izlənməsinə töhfə verə bilərlər (bax: ümumi siaysət tövsiyəsiin § 13n və 13o bəndləri).

67. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurası, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı kimi bir sıra dövlətlərarası təşkilatlar və onların əlaqədar məhkəmə orqanları, komissiya və komitələri bərabərliyin təbliği, ayrı-seçkilik və dözümsüzlüklə mübarizə və bu halların qarşısının alınmasını əhatə edən mandata malikdirlər. Hüquq bərabərliyi orqanları belə dövlətlərarası təşkilatlarla yaxından əməkdaşlıq baxımından əhəmiyyətli üstünlüklərə malikdirlər. Hüquq bərabərliyi orqanları müvafiq beynəlxalq sazişlərinin ratifikasiyasını və icrasını təbliğ etməli, dövlətlərarası təşkilatlardan irəli gələn standartlar, məhkəmə praktikaları, hesabat və tövsiyələr barədə bilikləri yayamalıdırlar. Hüquq bərabərliyi orqanlarının işlərinin beynəlxalq fəaliyyətlərlə əlaqələndirilməsi onların legitimliyini və təsir gücünü artırır. Zəruri olduqda, hüquq bərabərliyi orqanları belə mətnlərin ölkədə geniş istifadə edilən dillərə tərcümə edilməsini təşviq etməlidirlər.

68. Hüquq bərabərliyi orqanları dövlətlərarası təşkilatların monitorinq, məsləhət və əməkdaşlıq fəaliyyətlərində iştirak etməldirlər. Bu çərçivədə onlar tövsiyələr üçün məlumat və təkliflər təmin etməlidirlər. Bu, dövlətlərarası təşkilatlara hüquq bərabərliyi orqanlarının narahatlıqlarını və ekspert biliklərini nəzərə almaq, öz tövsiyələrini bunlar əsasında formalaşdırmaq, hüquq bərabərliyi orqanlarının mövqelərinə əlavə legitimlik qatmaq, onların müstəqillik və effektivliklərinin dəstəklənməsinə və möhkəmələndirilməsinə töhfə vermək imkanı yaradacaq.

Hüquq bərabərliyi orqanları isə öz növbələrində dövlətlərarası təşkilatlarının tövsiyələrinin ölkə səviyyəsində icrasını təbliğ və monitorinq etməldirlər.

69. Hüquq bərabərliyi orqanları bərabərlik, ayrı-seçkilik və dözümsüzlük məsələləri ilə məşğul olan təşkilat və institutların geniş diapazonunda fəaliyyət göstərirlər. Bu təşkilatlar arasında şəbəkələrin formalaşdırılması, onların problemlərinin araşdırılması, fəaliyyətlərinin bu şəbəkələr daxilində əlaqələndirilməsi onların ümumi məqsədlər üzərində təsirini artıracaq. Beləliklə, hüquq bərabərliyi orqanları belə təşkilatları birləşdirən mərkəzi kimi çıxış edə bilər. Belə şəbəkələr bərabərlik sahəsində ortaq anlayış və məqsədlər formalaşdırmaq, birgə fəaliyyətlər həyata keçirmək üçün istifadə edilməlidir. Bundan əlavə, ödənişsiz əsaslarla çalışmaq istəyən hüquqşünaslarla əməkdaşlıq təbliğat və qarşısını alma, eləcə də dəstək və məhkəməyə müraciət funksiyaları üçün xüsusi əhəmiyyət daşıya bilər.

70. Başqa üzv Dövlətlərdəki hüquq bərabərliyi orqanları ilə əməkdaşlıq həmkərlərarası öyrənmə prosesi, davamlı təkmilləşmə və hüquq bərabərliyi orqanlarının güclənməsi üçün önəmli mənbədir. Məsələn, Avropa hüquq bərabərliyi orqanları şəbəkəsi "Ekvinet" bu sahədə dəyərli rola malikdir.

## V. Dəstək və məhkəməyə müraciət səlahiyyətləri

*Tövsiyənin 14-cü bəndi*

71. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslər qeyri-bərabərlik problemlərinin həlli istiqamətində çoxsaylı problem və əngəllərlə qarşılaşırlar. Onların çoxu hüquqlarını icra etmək üçün zəruri bacarıq və resurslara malik deyil. Buna görə də hüquq bərabərliyi orqanları bu işdə onlara yardım etmək baxımından əhəmiyyətli rola malikdirlər.

72. Hüquq bərabərliyi orqanları nifrət nitqi daxil olmaqla, ayrı-seçkilik və dözümsüzlük barədə şikayətləri qəbul etmək və onlarla əlaqədar tədbir görmək hüququna malik olmalıdırlar. Belə şikayətlərin təqdim edilməsinə yardım edə bilmək üçün onlar ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslər üçün əlçatan olmalıdırlar. Bu insanlar çox vaxt birinci növbədə qarşılaşdıqları ayrı-seçkilik və ya dözümsüzlüklə əlaqədar olaraq şəxsi və emosional dəstəyə ehtiyac duyurlar. Növbəti addımda onlara hüquqlarını və onları təmin etməyin mümkün yollarını aydınlaşdırmaq üçün hüququ məsləhət verilməlidir. Bundan sonra isə onlara hüquqlarını həyata keçirmək məqsədilə dövlət və özəl sektor institutlarına, qərar qəbuluna görə məsul orqanlara və məhkəmələrə müraciət etmək üçün hüquqi yardım lazımdır.

73. Bu kontekstdə "institut" ifadəsi ayrı-seçkilik və ya dözümsüzlük barədə şikayətlərin baxılması və ya həll edilməsində hər hansı rola malik olan bütün özəl sektor və dövlət sektoru institutlarını nəzərdə tutur."Məhkəmə orqanları" ifadəsi qərarvermə funksiyası olan hüquq bərabərliyi orqanları kimi məhkəmə sistemindən kənar məhkəmə səlahiyyətləri olan hər hansı orqanı əhatə edir.

74. Barışıq ayrı-seçkilik və ya dözümsüzlüyə son qoymaq üçün sürətli və qarşılıqlı razılaşdırmaya əsaslanan proses ola bilər. Barışıq prosedurundan istifadə məşğulluq və ya icarə münasibətləri kimi davam etməkdə olan münasibətlər çərçivəsindəki ayrı-seçkilik və ya dözümsüzlük hallarında xüsusilə əlverişli ola bilər. Barışıq proseduru hüquq bərabərliyi orqanı daxilində və ya xaricində tərəfsiz bir şəxsə və ya bölməyə həvalə edilməlidir.

75. Hüquq bərabərliyi orqanlarının ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxsləri öz işçi heyəti vasitəsilə təmsil etmək, yaxud sözügedən şəxsin institutlar, məhkəmə orqanları qarşısında təmsil edilməsi üçün hüquqşünaslara ödəniş etmək hüququ olmalıdır.

76. Ayrı-seçkilik halları üçün nəzərdə tutulan çoxsaylı hüquqi müdafiə vasitələri mövcuddur və hüquq bərabərliyi orqanları şikayətçilərin hüquqlarının təmin edilməsi üçün ən effektiv vasitəni seçməlidirlər. Məsələn, məktəbə yazılma ilə əlaqədar problemlər və ya qaraçıların məcburən köçürülməsi hallarında hüquq

bərabərliyi orqanları səlahiyyətli hakimiyyət orqanları, bərabərlik məsələləri üzrə məhkəmə və ya ümumi yurisdiksiya məhkəməsi qarşısında inzibati icraat başlada bilər. Başqa hallarda o, mətbuat şurası kimi özəl sektor institutlara müraciət etməyi seçə bilər. Hüquq bərabərliyi orqanları eyni zamanda qanunvericilik aktları və ya inzibati aktların fundamental bərabər rəftar hüququ ilə uyğunluğu məsələləri ilə əlaqədar olaraq konstitusiya məhkəmələrinə çıxışa malik olmalıdırlar. Beynəlxalq səviyyədə isə hüquq bərabəeliyi orqanları işləri beynəlxalq və ya regional məhkəmələr, Avropa Şurasının Sosial Hüquqlar üzrə Komitəsi və ya Birləşmiş Millətlər Təşkilatının İrqi Ayrı-seçkiliyin Aradan Qaldırıması üzrə Komitəsi kimi fərdi və ya kollektiv şikayətlərə baxan komitələr qarşısına çıxarmaq hüququna malik olmalıdırlar.

77. Hüquq bərabərliyi orqanları müəyyən kateqoriyaya aid olan bütün şəxslərin ayrı-seçkiliyə məruz qaldığı və buna görə də konkret şikayətçinin olmadığı hallarda işləri öz adından başlatmaq səlahiyyətinə malik olmalıdır. Məsələn, hər hansı siyasətçinin bütün LGBT şəxslərinə qarşı nifrət alovlandırılması buna nümunə ola bilər. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış şəxsin, məsələn qurbana çevrilməkdən qorxduğu üçün öz adından məhkəmə işi başlada bilməyəcəyini düşündüyü halda da eyni səlahiyyətə ehtiyac var. Üzv Dövlətlər hüquq bərabərliyi orqanlarına bu səlahiyyəti vermək məqsədilə bütün mümkün yanaşmaları araşdırmalıdırlar.

78. İnstitutlar və məhkəmə orqanları icraatlarında hüquq bərabərliyi orqanlarının ekspert biliklərindən istifadə etməlidirlər. Hüquq bərabərliyi orqanları öz növbələrində ekspert biliklərinin məhkəmə işində yararlı ola biləcəklərini düşündükləri təqdirdə belə icraatlara müdaxilə etmək hüququna malik olmalıdırlar.

79. Məhkəmə orqanlarının və institutlarının qərarlarının icrası üçün qanunla müəyyən edilmiş prosedurlar mövcuddur. Eyni zamanda hüquq bərabərliyi orqanının belə qərarların icrasına yardım üçün əlavə fəaliyyətlər aparmaq imkanı var. Bura qərarların icrasının təmin edilməsi məqsədilə qərarların ünvanlandığı fərdlər, orqanlar və ya institutlarla yazışmalar, belə şəxs, orqan və institutlara məsləhətlər, yerlərə baş çəkilməsi, inspektorlar kimi başqa müvafiq şəxslərlə birgə fəaliyyət daxil ola bilər. Bundan sonrakı nəticələrin izlənilməsi fəaliyyətləri vaxtlı-vaxtında və sistemli qaydada həyata keçirilməlidir.

*Tövsiyənin 15-ci bəndi*

80. Hüquq bərabərliyi orqanları fərdi şikayətlərlə bağlı yardım təmin etməklə yanaşı strateji əhəmiyyətli məsələlərlə bağlı məhkəmə çəkişməsi siyasətini hazırlamalı və icra etməlidirlər. Bu strategiya bənzər vəziyyətdə olan bütöv bir qrupun hüquqlarını aydınlaşdırmaq, təbliğ etmək və qorumaq məqsədilə məhkəməyə müraciət hallarının müəyyən edilməsi və ehtiyatla seçilməsi, belə işlər haqqında geniş ictimaiyyətin məlumatlandırılması və nəticələrin KİV vasitəsilə yayılmasından ibarətdir. Bərabərlik sahəsində bu strategiyanın məqsədi (i) bərabər rəftar haqqında qanunvericiliyin təfsiri üçün məhkəmə praktikasının formalaşdırılması, (ii) əhatə edilən müxtəlif əlamətlər barədə həlledici sayda məhkəmə işlərinin toplanması, (iii) struktur ayrı-seçkilik məsələləri barədə presedent hüququn formalaşdırılması, (iv) geniş ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi və bundan fərdləri və institutları hüquqların bərabərliyi haqqında qanunvericilik çərçivəsindəki öhdəliklərə qarşı həssaslaşdırmaq üçün istifadə, (v) fərdləri və institutların sosial dəyişikliyə təşviq edilməsidir. Hüquq bərabərliyi orqanları belə strateji çəkişmələr və onların KİV-də işıqlandırılması vasitəsilə ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra, onlara dəstək fəaliyyətlərinin təsirini artıra bilərlər.

81. Hüquq bərabərliyi orqanlarına daxil olan şikayətlərin sayı artdıqca hər kəsin təmsil edilməsi qeyri-mümkün olur. Bu orqanlar bütün şikayətçiləri ilkin dəstək xidməti ilə təmin etməkı, müvafiq hallarda səlahiyyətli institutlara yönləndirməklə yanaşı, müəyyən işləri prioritetləşdirmək və həmin şikayətçiləri təmsil etmək imkanına

malik olmalıdırlar. Bu onlara resurslarından ən səmərəli şəkildə istifadə etmək və prinsipial əhəmiyyətli məhkəmə strategiyasını izləmək imkanı verəcək. Hüquq bərabərliyi orqanları şəffaflığı və ardıcıllığı təmin etmək üçün seçimlərini əsaslandırdıqları meyarları ictimailəşdirməlidirlər.

*Tövsiyənin 16-ci bəndi*

82. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslər çox vaxt hüquqlarının təmin edilməsi üçün başladılan icraatlarının xərclərini və maliyyə risklərini daşıya bilmirlər. Adətən, xüsusilə struktur ayrı-seçkilik hallarında və strateji əhəmiyyətli məhkəmə çəkişmələrində işlər bir neçə instansiyadan keçməli olur. Xərclərə və maliyyə risklərinə daxildir: (i) məhkəmə xərcləri və inzibati xərclər; (ii) şikayətçinin təmsil edilməsi üçün hüquqi yardım xərcləri, (iii) şikayətin təmin edilmməsi halında qarşı tərəfin hüquqi xərclərinin ödənməsi riski.

83. Xüsusilə struktur ayrı-seçkilik halları və strateji məhkəmə çəkişməsi hallarında ayrı-seçkiliyə və dözümsüzlüyə məruz qalan şəxslərin belə rüsum və xərcləri ödəmək məcburiyyətində qalmaması təmin edilməlidir. Üzv dövlətlər mövcud qabaqcıl təcrübə nümunələrindən istifadə edə və vəziyyəti müxtəlif üsullarla idarə edə bilərlər, məsələn: (i) ayrı-seçkiliyə məruz qalan şəxslərin məhkəmə xərclərindən azad edilməsi; (ii) ayrı-seçkilik hallarında hüquqi yardım xərclərinin və rüsumlarının 100% qarşılanması; (iii) ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərin məhkəmə xərclərini ödəmək məcburiyyətinə qalmaması, hüquqi yardım xərclərinin dövlət tərəfindən ödənməsi üçün hüquq bərabərliyi orqanlarının məhkəmələrə "ödənişsiz məhkəmə işi" tövsiyə etmək səlahiyyətlərinin genişləndirilməsi; (iv) şikayət təmin edilmədiyi, lakin aydınlaşdırılmalı olan və ya ictimai maraq kəsb edən məsələlərdən söhbət getdiyi hallarda qarşı tərəfin xərclərinə görə öhdəlik daşınmaması; (v) əhəmiyyətli sayda şikayətçinin bir araya gələ bilmədiyi hallarda işlərin birləşdirilməsi ilə xərclərin azaldılması və ya (vi) artıq İzahedici memorandumun 75-ci bəndində qeyd edildiyi kimi, hüquq bərabərliyi orqanlarının ayrı-seçkilik və ya dözümsüzlüyə məruz qalan şəxsləri öz işçi heyəti vasitəsilə təmsil edə bilməsi və ya hüquqi yardım üçün ödəniş edə bilməsi məqsədilə yetərli resursla təmin edilməsi.

## VI. Qərarvermə səlahiyyətləri

*Tövsiyənin 17 və 18-ci bəndləri*

84. Çox sayda üzv Dövlət hüquq bərabərliyi orqanlarına ayrı-seçkilik və dözümsüzlük barədə şikayətlər haqqında qərar qəbul etmək səlahiyyəti vermişdir. Bu hüquq bərabərliyi orqanları arasında iki model fərqləndirilə bilər: hüquq bərabərliyi orqanlarının birinci qrupu məcburi hüquqi qüvvəyə malik qərarlar qəbul edə bilərlər, bəziləri həmçinin sanksiyalar təyin edə bilərlər (ümumi siyasət tövsiyəsinin 17-ci bəndi). Hüquq bərabərliyi orqanlarının ikinci qrupu isə məcburi hüquqi qüvvəyə malik olmasa da, təcrübədə əhəmiyyətli təsirə malik ola biləcək tövsiyələr verə bilər (ümumi siyasət tövsiyəsinin 18-ci bəndi). Ombudsman mandatı ilə bərabərlik məsələləri üzrə mandatı özündə birləşdirən institutlar ikinci qrupa aiddir.

85. Şikayətlər barədə qərarları qəbul edən hüquq bərabərliyi orqanları məhkəmə orqanlarına bənzəyə, hökm və qərarlar qəbul edə və ya müstəqil inzibati səlahiyyətli orqanlara bənzəyə və inzibati akt və ya qərarlar qəbul edə bilərlər.

86. Belə orqanlar nifrət nitqi daxil olmaqla, ayrı-seçkilik barədə şikayətləri qəbul etmək səlahiyyətinə malik olmalıdırlar. Bu orqanlar qarşısında ayrı-seçkiliklə əlaqədar işlərdə ortaq sübutetmə öhdəliyi qaydasının tətbiq edildiyi qanunda birmənalı olaraq müəyyən edilməlidir (İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin 11-ci bəndi). Belə orqanlar qarşısındakı prosedurlar barədə əsas prosessusal zəmanətləri müəyyən edən əlavə müddəalara ehtiyac var, onlar mülki və inzibati prosessual məcəllədən götürülə bilər. Belə müddəaların təfərrüatlarının müəyyən edilməsi bu ümumi siyasət tövsiyəsinin əhatə dairəsi daxilində deyil.

87. Qərarvermə funksiyasına malik olan hüquq bərabərliyi orqanı təsis edən üzv Dövlətlər onu müvafiq qərarvermə və nəticələrin izlənməsi səlahiyyətləri ilə təmin etməlidirlər. Hüquq bərabərliyi orqanın məcburetmə qüvvəsi olmayan tövsiyələr (birinci model, 17-ci bənd) əvəzinə məcburi hüquqi qüvvəyə malik olan qərarlar qəbul etmək (ikinci model, 17-ci bənd) səlahiyyətinə malik olmasına üstünlük verilir. Hər iki modeldə şikayətlər barədə qərar qəbul edən hüquq bərabərliyi orqanları qərarlarını əsaslandırmalı və dərc etməli, ayrı-seçkiliyə son qoymaq (məsələn, qaraçı ailələrinin uşaqlarının məktəbin bütün siniflərinə bərabər paylaşdırılması tələbi), tam bərabərliyə nail olmaq (məsələn, şikayətçiyə əməkhaqqının bərabərlik prinsipi əsasında ödənməsinin tələb edilməsi) və gələcəkdə baş verə biləcək ayrı-seçkilik hallarının qarşısını almaq (şagirdlərin müxtəlif sinilərə paylaşdırılması barədə qaydanın qəbul edilməsi) məqsədilə qərar qəbul etmək səlahiyyətinə malik olmalıdırlar. Eyni zamanda onların ayrı-seçkiliklə əlaqədar işlərdə maddi və mənəvi zərər üçün kompensasiya ödənişi, cərimə və cinayətkarın adının dərc edilməsi daxil olmaqla, effektli, proporsional və çəkindirici sanksiyalar tətbiq etmək üçün əlavə səlahiyyətləri olmalıdır. Şikayətçinin adı yalnız onun razılığı əsasında dərc edilməlidir.

88. Birinci modeldə üzv Dövlətlər hüquq bərabərliyi orqanlarının qərarlarının icrası üçün sistem təsis etməlidirlər. Bu, məhkəmə qərarları və ya inzibati qərarların icrası haqqında qanunvericiliyə əsaslana bilər.

*Tövsiyənin 19 və 20-ci bəndləri*

89. Məcburi hüquqi qüvvəyə malik olan qərarlar qəbul edildiyi halda, apelyasiyaya müraciət etmək mümkün olmalıdır, lakin bu, yalnız sözügedən məhkəmə işlərinin mahiyyəti üzrə yekun qərarlara şamil olunmalıdır. Məcburi qüvvəyə malik olmayan tövsiyələr apelyasiya predmeti olmamalıdır.

90. Şikayəti ilk növbədə məhkəmələr qarşısında qaldırmaq qərarına gələn şikayətçiyə eyni məsələni hüquq bərabərliyi orqanı qarşısında qaldırmağa icazə verilməməlidir.

## VII. Sübut və məlumatların əldə edilməsi səlahiyyətləri

*Tövsiyənin 21-ci bəndi*

91. Hüquq bərabərliyi orqanları bu ümumi siyasət tövsiyəsində təsvir edilən üç funksiya ilə də əlaqədar sübut və məlumat əldə edə bilmək üçün müvafiq səlahiyyətə malik olmalıdırlar. Qərar qəbul edə bilən orqanlarının səlahiyyətləri yalnız təbliğat və qarşısını alma, dəstək və məhkəməyə müraciət funksiyaları mandatı ilə təmin edilmiş hüquq bərabərliyi orqanları ilə müqayisədə daha geniş ola bilər.

## VIII. Müstəqillik və effektivlik

*Tövsiyənin 22-ci bəndi*

92. Üzv Dövlətlər bərabərlik sahəsində mümkün olan ən yaxşı təsirin və nəticələrin əldə edilməsi üçün hüquq bərabərliyi orqanın müstəqillik və effektivliyinin təmin edilməsi məqsədilə bir sıra tədbirlər görməlidirlər (həmçinin bax: ümumi siyasət tövsiyəsinin 2-ci və 3-cü bəndləri).

*Tövsiyənin 23-26-ci bəndləri*

93. Yüksək səviyyəli və vicdanlı rəhbərlik hüquq bərabərliyi orqanlarının müstəqilliyi və effektivliyi üçün vacib şərtdir. Buna görə də bu ümumi siyasət tövsiyəsinə hüquq bərabərliyi orqanının rəhbərliyi haqqında bir neçə tövsiyə daxil edilmişdir.

94. İDAK-ın ölkə monitorinqi hesabatlarında qeyd edildiyi kimi, üzv Dövlətlərdə hüquq bərabərliyi orqanları üçün rəhbərlik modelləri əsaslı surətdə fərqlənir. Hüquq bərabərliyi orqanları tam və ya yarım ştat çalışan sədr, orqanın idarə heyətinin sədri, müxtəlif sahələrə görə cavabdehlik daşıyan müavinləri (məsələn, ombudsmanın müavinləri) olan təyin edilmiş rəhbər (məsələn, ombudsman), yaxud

baş menecer (məsələn, hüquq bərabərliyi orqanına rəhbərlik üçün işə qəbul edilən, çox vaxt idarə heyətinə hesabat verən şəxs) tərəfindən idarə edilə bilərlər.

95. Hüquq bərabərliyi orqanının rəhbərliyinin müstəqilliyi üçün başlıca təminat seçimin hər hansı mərhələsində, xüsusilə namizədliyin irəli sürülməsi və ya namizədlərin (ilkin) seçimi və qərar qəbulu mərhələlərində icra hakimiyyəti orqanının seçim prosesinə həlledici təsirə malik olmaması üçün liderlik vəzifəsinə namizədlər şəffaf və səriştəliliyə əsaslanan qaydada seçilməlidirlər. Bu proses geniş iştirak prinsipinə əsaslanmalıdır, yəni ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupları təmsil edən və ya onlarla işləyən təşkilatlar prosesə cəlb edilməlidirlər. Açıq və şəffaf proses vasitəsilə parlament tərəfindən seçilmək bu şərtlərin ödənməsinin yollarından biridir.

96. Rəhbər vəzifələri tutan şəxslər təhdidlərə və məcburetməyə qarşı müqayisə edilə bilən vəzifələri tutan dövlət qulluqçuları ilə eyni səviyyəli müdafiədən yararlanmalıdırlar. Qanuna rəhbər vəzifələri tutan şəxslərin istisna hallarda işdən və ya seçim prosesindən kənarlaşdırılma şərtləri və bu halda mandatın yenilənməsi haqqında müddəalar daxil olmalıdır. Mandatda dəyişikliklərin edilməsi və ya institutun yenidən qurulması rəhbər vəzifə tutan şəxslərin kənarlaşdırılması ilə nəticələnməməlidir. Bu şəxslərin funksiyalarının yerinə yetirilməsi ilə əlaqədar olaraq müvafiq səviyyəli toxunulmazlıqla təmin edilməsi müstəqillik üçün əlavə təminat təşkil edir. Təfərrüatlar və standartlarla Avropa Şurası Venesiya Komissiyasının Parlament üzvlərinin toxunulmazlıqlarının miqyası və ləğv edilməsi haqında hesabatında (CDL-AD(2014)011) tanış olmaq olar.

97. Rəhbər vəzifələri tutan şəxslər hüquq bərabərliyi orqanlarının müstəqilliyinə təhlükə yarada biləcək və ya rollarına hər hansı başqa yolla xələl gətirə biləcək fəaliyyətlər aparmamalı və ya belə orqan və ya institutlara üzv olmamalıdırlar. Onlar, məsələn, nazir, dövlət rəsmisi və ya peşəkar təşkilatların rəhbəri olmamalıdırlar.

98. Güclü və sabit rəhbərlik hüquq bərabərliyi orqanının göstərəcəyi təsir baxımından həlledici əhəmiyyət daşıyır. Hüquq bərabərliyi orqanlarına rəhbərlik edilməsinə görə məsul şəxslər mandatlarının əhatə etdiyi müxtəlif sahələrdə irəliləyişə və nəticəyə nail olmalı, eyni zamanda daim dəyişən siyasi kontekstdə danışıqlar aparmalı, orqanın mandatını və müstəqilliyini mühafizə etməlidirlər. Onlar həmçinin peşəkar və işinə bağlı, təşkilatın strateji prioritetlərinə köklənmiş işçi heyəti formalaşdırmalı, müxtəlif maraqlı tərəflərlə müxtəlif münasibətləri idarə etməlidirlər.

99. Səmərəli rəhbərliyin təmin edilməsi üçün rəhbər vəzifələri tutan şəxslərin cavabdehlikləri aydın müəyyən edilməlidir. Hüquq bərabərliyi orqanının rəqabət qabiliyyətli əməkhaqqı alan, hüquq bərabərliyi orqanının idarə edilməsi və istiqamələndirilməsi ilə məşğul olan, tam və ya yarımştat çalışan azı bir rəhbəri olmalıdır. Mandatlarının müddəti onlara nəticə əldə etmək və müstəqilliklərinə təminat verməyə imkan verməlidir. Bu müddət, məsələn, uzadılma imkanı verilməklə dörd və ya beş il arasında dəyişə, yaxud uzadılma imkanı nəzərdə tutulmadan daha uzun müddəti əhatə edə bilər.

*Tövsiyənin 27-29-cu bəndləri*

100. Hüquq bərabərliyi orqanının müstəqilliyi üçün daha bir vacib təminat daxili struktur, büdcə və maliyyə resursları, insan resurslarının idarə edilməsi, işçi heyətinin işə qəbulu ilə əlaqədar qərarları müstəqil olaraq qəbul etmək və özünün ayrıca məkanına sahib olmaq hüququdur. Bu məkan ölçüsü və istifadə təyinatı baxımından hüquq bərabərliyi orqanının ehtiyaclarına cavab verməlidir. Dövlət idarələrində çalışan işçi heyətinin ezam edilməsi məhdud səciyyə daşımalıdır, belə ki, bu, hüquq bərabərliyi orqanının müstəqilliyinə mənfi təsir edə, onun bu sahədəki etibarlılığına xələl gətirə bilər.

101. Hüquq bərabərliyi orqanlarının adekvat maliyyələşdirilməsi və komplektləşdirilməsi onun effektivliyi üçün başlıca amildir və obyektiv göstəricilər əsasında hesablanmalıdır. Bu göstəricilərə daxil ola bilər: (i) üzv Dövlətin ölçüsü və əhalisi, (ii) nifrət nitqi daxil olmaqla, bildirilmiş və bildirilməmiş ayrı-seçkilik və dözümsüzlük insidentlərinin səviyyəsi və mahiyyəti, (iii) bərabərlik, ayrı-seçkilik və dözümsüzlük sahələrində çalışan digər orqanların diapazonu, potensialı və töhfəsi, (ıv) hüquq bərabərliyi orqanının funksiya və səlahiyyətlərinin güclü təsir yaratmaq üçün zəruri miqyas və keyfiyyətdə icrası üçün lazımi xərclər, (v) üzv Dövlətin dövlət büdcəsinin miqyası. Başqa üzv Dövlətlərlə həmkarlararası qiymətləndirmələr hüquq bərabərliyi orqanı üçün adekvat resurs səviyyəsinin müəyyən edilməsinə yardım edə bilər.

102. Maliyyə resurslarının istifadəsində şəffaflığa ya hüquq bərabərliyi orqanının illik hesabatı vasitəsilə, ya da başqa adekvat qaydada nail olunmalıdır.

103. Dövlət xaricindəki mənbələrdən, məsələn, Aİ, Avropa Şurası və ya özəl xeyriyyə təşkilatlarından əlavə maliyyə vəsaitlərinin əldə edilməsi hüququ müstəqilliyin güzəştə gedilməməsi şərtilə hüquq bərabərliyi orqanlarının göstərdiyi təsiri gücləndirə bilər.

*Tövsiyənin 30-cu bəndi*

104. İllik hesabatları, tematik, xüsusi və araşdırma hesabatlarını əvvəlcədən razılıq almadan və ya bildiriş vermədən hazırlamaq və dərc etmək, eləcə də ictimai bəyanatlar vermək hüququ müstəqilliyin vacib elementidir. Hesabatlar parlament və ya hökumət tərəfindən təsdiq edilməməlidir.

*Tövsiyənin 31-ci bəndi*

105. Hüquq bərabərliyi orqanları öz müstəqilliklərini və etibarlılıqlarını möhkəmləndirmək üçün öz işlərini müvafiq beynəlxalq və ölkədaxili hüquqi baza, standartlar, tövsiyələr və presedent hüquq üzərində qurmalıdırlar. Onların işi sübutlara əsaslanmalı, müvafiq institut və şəxslərin fikirlərini nəzərə almalıdır.

*Tövsiyənin 32-ci bəndi*

106. Dövlət qulluğu haqqında qanuna və maliyyə hesabatlılığı qaydalarına tabe olmaq hüquq bərabərliyi orqanlarının müstəqilliyi ilə bir araya sığmır. Bundan hüquq bərabərliyi orqanının fəaliyyətlərinin əngəllənməsi üçün istifadə edilməməlidir. Müvafiq hallarda məhkəmə orqanlarına tətbiq edilən qaydalar hüquq bərabərliyi orqanlarına da tətbiq edilə bilər.

*Tövsiyənin 33-34-cü bəndləri*

107. Strateji planlaşdırma və müntəzəm planlaşdırma və idarəetmə dövrələri çərçivəsində iş əsas məsələlərin prioritetləşdirilməsi, təsirin maksimum səviyyəədək gücləndirilməsi, iş keyfiyyətinin yüksəldilməsi, resurslardan səmərəli istifadə, hüquq bərabərliyi orqanı daxilində daimi öyrənmə və təkmilləşmənin təmin edilməsi baxımından vacibdir. Bu planlaşdırma və idarəetmə dövrələri səciyyəvi olaraq qalmaqda olan problemlərin təhlilini, məqsədlərin müəyyən edilməsini, fəaliyyətlərin planlaşdırılmasını və icrasını, onların təsirlərinin qiymətləndirilməsini, görülmüş işlər və nail olunmuş işlərin götür-qoy edilməsini əhatə edir. Hüquq bərabərliyi orqanlarının məqsədlərinə nail olmasına töhfə verəcək və göstərilən təsiri maksimum səviyyədə gücləndirəcək bütün funksiyalar üzrə fəaliyyətlərin strateji kombinasiyadan istifadə etməsini təmin etmək məqsədilə onlardan yararlanıla bilər.

108. Hüquq bərabərliyi orqanları əsas məqsədlər və fəaliyyətlər üçün sərf olunan resursları, tədbirlərinin nəticələrini, ayrı-ayrı fəaliyyətlərin, eləcə də orqanın ümumi təsirini ölçməyə imkan verəcək göstəriciləri, ilkin şərtləri və hədəfləri müəyyən etməlidirlər. Onlar vaxtaşırı olaraq özünüqiymətləndirmə, xarici qiymətləndirmə vasitəsilə işlərini dəyərləndirməli, işçi heyətinin bütün üzvlərini kollektiv öyrənmə prosesinə və daimi təkmilləşməyə cəlb edən daxili proses və məlumat axınları

formalaşdırmalıdırlar. Bu planlaşdırma və idarəetmə prosesləri sadə və effektli olmalı, resursların həddən artıq sərf olunmasına gətirib çıxarmamalıdır.

109. Hüquq bərabərliyi orqanları qarşısındakı məlumatlandırma çətinliklərini nəzərə alsaq, ayrıca kommunikasiya strategiyası hazırlanmalıdır. Bu strategiya kommunikasiya məqsədlərini, hədəf auditoriyaların prioritetlərini, onları ötürülməli olan başlıca mesajları, istifadə edilən müxtəlif məlumatlandırma vasitələrini və mövcud resurslardan səmərəli istifadəni əhatə etməlidir.

110. Əsas auditoriya və mesajlara adətən daxil olur: (i) bərabərlik, müxtəliflik və ayrı-seçkiliyin yolverilməzliyinin dəyərləndirilməsi və bunlara qarşı müsbət münasibətlərin formalaşdırılması, bu məsələlərin daha yaxşı başqa düşülməsi, bərabərliyə töhfə vermək üçün stimulun artırılması məqsədilə geniş ictimaiyyət; (ii) bərabər rəftar haqqında qanunvericilik çərçivəsində mövcud öhdəlikləri barədə məlumatların təmin edilməsi, effektiv bərabərlik və müxtəliflik sistemlərinin tətbiqi ilə bu öhdəliklərin yerinə yetirilməsi məqsədinin aşılması, habelə həvəsləndirmə məqsədilə dövlət və özəl sektordakı bütün institutlar; (iii) hüquqları barədə məlumatlandırmaq, zəruri etimad və etibarlılığı formalaşdırmaq, hüquqlarını həyata keçirməyə imkan verən potensialı yaratmaq üçün ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qruplar.

*Tövsiyənin 35-36-cı bəndləri*

111. Qanunvericilik orqanları, icra hakimiyyəti orqanları və hüquq bərabərliyi orqanları bərabərliyin təbliği və həyata keçirilməsində, ayrı-seçkilik və dözümsüzlüklə mübarizədə və bu halların aradan qaldırılmasında vacib rola malikdirlər. Hüquq bərabərliyi orqanları ortaq məqsədlərə doğru irəliləyişi maksimum səviyyəyə yüksəltmək üçün əsas məsələləri və tövsiyələrin icrasını qanunvericilik və icra hakimiyyəti orqanlarında qərarların qəbul edilməsinə görə məsul olan ən yüksək vəzifəli şəxslərlə müzakirə etməlidirlər. Buradakı illik, tematik və digər hesabatlar və tövsiyələr belə müntəzəm mübadilələr üçün mükəmməl baza təşkil edir. Qanunda qanunvericilik və icra hakimiyyəti orqanları ilə illik hesabat barədə azı bir dialoqun nəzərdə tutulması bu əməkdaşlıq üçün zəruri çərçivəni müəyyən edir.

112. İllik hesabatlar bərabərlik, ayrı-seçkilik və dözümsüzlük, eləcə də hüquq bərabərliyi orqanının tövsiyələri ilə əlaqədar meydana gələn əsas məsələləri müəyyən etməlidir. Onlar həmçinin hüquq bərabərliyi orqanlarının fəaliyyətləri və onların nəticələri, o cümlədən ayrı-seçkiliklə əlaqədar şikayətlərin kateqoriyalar üzrə bilgiləri və nəticələri barədə hesabat verməlidir.

113. Yalnız İzahedici memorandumun 111-ci bəndində qeyd edilən qərarların qəbuluna görə məsul ən yüksək dairələr deyil, ümumilikdə bütün hakimiyyət orqanları hüquq bərabərliyi orqanları ilə müntəzəm dialoq içində olmalıdırlar. Bu məqsədlə onlar proaktiv olaraq qanunların, siyasət və icra hakimiyyəti akrlarının layihələrini bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi üzərində təsirin nəzərə alınması məqsədilə hüquq bərabərliyi orqanlarına yönəltməlidirlər. Hüquq bərabərliyi orqanları isə şərh və tövsiyələrini hakimiyyət orqanlarına təqdim etməlidirlər. Hakimiyyət orqanları belə dialoqa açıq olmalıdırlar.

*Tövsiyənin 37-ci bəndi*

114. Hüquq bərabərliyi orqanları yalnız maraqlı tərəflərlə xarici şəbəkələr və əməkdaşlıq formalaşdırmalı deyil (bax: ümumi siyasət tövsiyəsinin 12b bəndi), həm də maraqlı tərəfləri, xüsusən ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupları və onların təmsil etdikləri təşkilatların öz struktur və işlərinə cəlb etməlidirlər. Onların cəlb edilməsi üçün dəyərli vasitə üzvlüyün bu qrup və təşkilatlardan formalaşdırılması ilə məsləhət komitəsinin təsis edilməsidir. Bu komitə hüquq bərabərliyi orqanının cari və gələcək iş və planlarının monitorinqinə və strateji planlaşdırmaya cəlb edilməlidir. Vətəndaş cəmiyyəti, elmi dairələr, işəgötürən və işçi assosiasiyaları, KİV daxil olmaqla, maraqlı tərəflərin geniş diapazonu bənzər qaydada bu komitəyə və ya ayrıca komitəyə daxil edilə bilər. Bundan əlavə, hüquq bərabərliyi orqanları

müəyyən işləri irəli aparmaq, birgə fəaliyyətlər və layihələr yaratmaq və idarə etmək məqsədilə maraqlı tərəflərlə müvəqqəti iş və layihə qrupları yarada bilərlər.

*Tövsiyənin 38-39-cu bəndləri*

115. Hüquq bərabərliyi orqanları fəaliyyət göstərdikləri bütün sahələrdə müxtəliflik və gender nümunəsi kimi çıxış etməlidirlər. Müxtəlif bioqrafiya və şəxsi təcrübələrə malik rəhbər şəxslərin və işçi heyətinin işə qəbul edilməsi hüquq bərabərliyi orqanının ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzləşdikləri vəziyyəti başa düşmək, yaxşılaşdırmaq və qarşılıqlı fəaliyyət potensialını yüksəldir. Hüquq bərabərliyi orqanlarının rəhbərliyi daxilində müxtəlifliyə İzahedici memorandumun 114-cü maddəsində qeyd edilən qrup və təşkilatların üzvlüyü ilə idarəetmə və ya məsləhət orqanının təsis edilməsi ilə nail oluna bilər. İdarəetmə və işçi heyəti üzvləri arasında müxtəlifliyə işçi heyətinin ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan kifayət qədər təmsil edilməyən qruplar daxilindən seçilməsi üçün müsbət fəaliyyət tədbirlərinin görülməsi daxil olmaqla, bərabərlik və müxtəliflik sistemlərinə əsaslanan işə qəbul prosesi vasitəsilə nail oluna bilər.

116. Hüquq bərabərliyi orqanları strukturlarında və işçi heyətlərində gender balansına nail olmağa çalışmalı, müvafiq hallarda bu məqsədlə müsbət fəaliyyət tədbirlərindən istifadə etməlidirlər.

117. Hüquq bərabərliyi orqanları geniş səlahiyyət diapazonuna malikdirlər (ümumi siyasət tövsiyəsinin 13-18-ci bəndləri) və müxtəlif sahələrdə bərabərlik, ayrı-seçkilik və dözümsüzlük məsələləri ilə məşğul olurlar. İşçi heyəti üzvləri bütün zəruri fəaliyyətləri yerinə yetirə bilmək üçün müxtəlif peşələri (məsələn, pedaqoqlar, sosioloqlar, hüquqşünaslar) təmsil etməli, fərqli səriştələrə (məsələn, ünsiyyət, məsləhətləşmə, araşdırma, məlumatların toplanması, layihələrin hazırlanması, hüquq və idarəetmə bacarıqları) malik olmalıdırlar.

118. Hüquq bərabərliyi orqanlarında işçi heyəti üçün təlimlərin keçilməsi müxtəlif bilik və bacarıqların yenilənməsi, vəzifənin ən yaxşı səviyyədə yerinə yetirilməsi üçün tələb olunan məlumatlılığın təmin edilməsi üçün vacibdir.

## IX. Əlçatanlıq

*Tövsiyənin 40-ci bəndi*

119. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzvləri çox vaxt çoxsaylı problem və maneələrlə qarşılaşdıqlarına görə (bax: İzahedici memorandumun 71-ci bəndi), hüquq bərabərliyi orqanları onlar üçün əlçatanlığı təmin etməyə xüsusi diqqət yetirməlidirlər.

120. Hüquq bərabərliyi orqanları ilk əlaqənin asanlıqla saxlanması məqsədilə ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzvlərinə məlumata çıxış və əlaqə üçün fərqli və asan üsullar təklif etməlidirlər. Orqanın yerləşdiyi məkanın əlçatanlığı, onlayn, e-poçt və telefon xidmətləri bu baxımdan vacib resurslardır.

121. Zəruri hallarda daimi əlaqə üçün müvafiq yerli və/və ya regional ofislərin təsis edilməsi və/və ya bütün ölkə ərazisində yerli və/və ya regional maarifləndirmə təşəbbüslərinin təşkil edilməsi də eyni dərəcədə vacibdir. Bu, xüsusilə belə qrupların ucqar ərazilərdə yaşadığı, yaxud üzv Dövlətlərin ərazisinin geniş olduğu hallarda çox vacibdir. Belə fəaliyyətlər çərçivəsində xüsusi diqqət ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların çoxluq təşkil etdiyi region və bələdiyyələrə xüsusi diqqət yetirilə bilər. Belə qrupların hüquq bərabərliyi orqanlarının mərkəzi, regional və ya yerli ofislərinin yaxınlığında yaşamayan üzvləri üçün hüquq bərabərliyi orqanı ilə onlayn rejimdə əlaqə saxlaya bilmək, video konfrans kimi texnologiyalardan istifadə etmək önəmlidir.

122. (Çoxsaylı) ayrı-seçkilik və dözümsüzlük halları ilə üzləşən insanlar müxtəlif qrupları təmsil edirlər və konkret ehtiyaclara və xarakterisikalara malikdirlər. Onlardan bəziləri ölkənin rəsmi dil(lər)ini yaxşı bilməyə, savadsız ola, hakimiyyət orqanları ilə əlaqə saxlamaqdan qorxa, iş saatlarında hüquq bərabərliyi orqanları ilə əlaqə

saxlamaq imkanına malik olma bilərlər. Bu müxtəlif ehtiyaclara cavab verməyin başlıca elementi hüquq bərabərliyi orqanlarının prosedur və praktikalarının ehtiyaclara uyğunlaşdırıla bilməsidir. Buna görə də hüquq bərabərliyi orqanları ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların müxtəlif ehtiyaclarını müntəzəm olaraq təhlil etməli, bu ehtiyaclara ilk əlaqədən etibarən məntiqi baxımdan məqbul çərçivədə uyğunlaşa bilmək üçün prosedurlar hazırlamalıdırlar. Belə adaptasiyaya, məsələn, hüquq bərabərliyi orqanları ilə müxtəlif dillərdə ünsiyyət imkanının təmin edilməsi, üz-üzə və şifahi ünsiyyətin aparılması, hüquq bərabərliyi orqanları ilə etimad doğuran mühitdə görüşün təşkil edilməsi, iş saatları xaricində əlaqə saxlamağın mümkünlüyü, valideynlərlə ünsiyyət zamanı uşaqların baxıcı xidməti ilə təmin edilməsi nümunə ola bilər. İşçi heyəti belə maneə və xüsusiyyətlərdən xəbərdar olmalı, ayrı-seçkilik və dözümsüzlüyə məruz qalmış hər bir şəxsin konkret ehtiyaclarını araşdırmağa, ilk əlaqədan etibarən zəruri uyğunlaşmalar aparmağa hazır olmalıdır.

123. Asan əlaqəyə nail omlağın daha bir vacib tərkib hissəsi hüquq bərabərliyi orqanı ilə ilk dəfə əlaqə saxlamaq istəyən şəxslərə münasibətdə minimum tələblərin irəli sürülməsidir. Şikayətləri şifahi olaraq və minimum qəbuledilənlik şərtləri ilə təqdim etmək mümkün olmalıdır.

124. "Əlillik" ifadəsi BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında konvensiyasının 1.2-ci maddəsində müəyyən edilən mənada başa düşülməlidir.

125. Ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan qrupların üzvləri çox vaxt hüquq bərabərliyi orqanından yardım istədikdə, əlavə zərərlə üzləşəcəklərindən qorxurlar. Buna görə də bu riskin minimuma endirilməsi üçün hüquq bərabərliyi orqanları məxfi qaydada əlaqə saxlamaq mümkün olmalıdır. Hüquq bərabərliyi orqanları belə repressiv tədbirləri qadağan edən hüquqi müddəalardan istifadə etməklə, ayrı-seçkilik və dözümsüzlüyə məruz qalan şəxslərin bu prosedur çərçivəsində qurbana çevrilməsinin qarşısını almaq üçün tədbirlər görməlidirlər (bax: İDAK-ın 7 saylı ümumi siyasət tövsiyəsinin 27-ci bəndi).